# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## İki qonşu ölkənin birliyinin töhfəsi: SABİTLİK VƏ İNKİŞAF



3

SƏS
№ 064 (7232)
18 aprel 2025-ci il.
Qiyməti 60 qəpik

## "Əlaqələrimiz strateji tərəfdaşlıq xarakteri daşıyır"



2

Prezident İlham Əliyev Çinin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

# Paşinyanın blefi: Ermənistan əsas problemi maskalamağa çalışır



6

## Doğum azalır: həm bizdə, həm dünyada



11

## Ənənəvi, yoxsa elektron kitab?..



13

## "Real" ŞOKDA, "Arsenal" və "İnter" yarımfinalda...



16

## Kimlər taksi fəaliyyəti ilə məşğul ola bilər?



16

## Son yağış dərs olsun!



11





# “Əlaqələrimiz strateji tərəfdaşlıq xarakteri daşıyır”

## Prezident İlham Əliyev Çinin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Lu Meyin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi.***

Azərbaycan-Çin əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyən dövlətimizin başçısı ötən il Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşünü və onunla birlikdə ölkələrimizin strateji tərəfdaşlığına dair birgə bəyanatın qəbul edilməsini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev Azərbaycanla Çin arasında əməkdaşlığın geniş sahələri - siyasi, iqtisadi-ticari, nəqliyyat, enerji, sənaye, sərmayələr, təhlükəsizlik, mədəni-humanitar və digər sahələri əhatə etdiyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığına toxunaraq, qarşılıqlı dəstəyi qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın ”Vahid Çin” siyasətini daim dəstəklədiyini vurğuladı. ”Bir kəmər, bir yol” layihəsinin geniş coğrafiyada ölkələri bir araya gətirərək, əməkdaşlığı təşviq edən layihə olduğunu deyən dövlətimizin başçısı Azərbaycanın Çinin bu təşəbbüsünə dəstək verən ilk ölkələrdən biri olduğunu qeyd etdi.

Azərbaycanda bütün zəruri infrastruktur layihələrinin yaradıldığını və bir neçəsinin də icra mərhələsində olduğunu vurğulayan Prezident İlham Əliyev Orta Dəhlizin inkişafı baxımından ölkələrimiz arasında əməkdaşlıq üçün geniş imkanların mövcudluğunu bildirdi. Səfir Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını Azərbaycan Prezidentinə çatdırdı. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Çin Xalq Respublikasının Sədrinə çatdırmağı xahiş etdi.

Lu Mey Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurla inkişafının Çin tərəfindən də dəstəkləndiyini dedi. O, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini vurğuladı. Səfir ölkələrimiz arasında münasibətlərin dostluq və strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd edərək, əlaqələrimizin bundan sonra da inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

Çin-Azərbaycan münasibətlərinin inkişafında Ulu Öndər Heydər Əliyevin roluna toxunan Lu Mey Ümummilli Liderin zəngin irsinin əsasında ölkəmizin bu gün uğurla inkişaf etdiyini vurğuladı.

# Gürcü siyasətçilər: Azərbaycan Gürcüstan üçün mühüm strateji tərəfdaşdır

“Gürcüstan Prezidenti Mixeil Kavelaşvilinin Azərbaycana ilk rəsmi səfəri zəruri idi. Bu səfər çox maraqlı və məhsuldar olub. Azərbaycan Gürcüstan üçün mühüm strateji tərəfdaşdır və bu cür ünsiyyət ikitərəfli əlaqələrin möhkəmlənməsinə töhfə verir.” AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın hakim ”Gürcü Arzusu-Demokratik Gürcüstan” partiyasının üzvləri, parlamentin deputatları və politoloqlar söyləyiblər.



Gürcüstan parlamentinin birinci vitse-spikeri Giorgi Volski ölkə prezidentinin Azərbaycana səfərini yüksək dəyərləndirib. Onun sözlərinə görə, Azərbaycan ilə strateji əməkdaşlıq mövzusu hər zaman gündəmdədir. Bildirib ki, bu əməkdaşlıq təkcə Gürcüstanın marağında deyil: ”Prezidentin Azərbaycana səfəri vacib idi. Ümumiyyətlə, Azərbaycan ilə strateji əməkdaşlıq mövzusu gündəmdədir. Bu, təkcə bizim üçün maraqlı deyil. Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, bu, dünyanın aparıcı dövlətləri və assosiasiyalarını maraqlandıran məsələdir”.

Parlamentinin Avropaya inteqrasiya komitəsinin sədri Levan Maxaşvili da deyib ki, bu səfər maraqlı və uğurlu olub: ”Bakıda kifayət qədər zəruri, səmərəli görüşlər və müzakirələr oldu. Məhz buna görə də səfər maraqlı və uğurlu oldu və bu məntiqlidir. Çünki Azərbaycan çox mühüm strateji tərəfdaşdır, mən deyərdim ki, Qərblə Şərqi, Avropa və Asiyanı birləşdirməyə gələndə əvəzolunmaz tərəfdaşdır”.

Tbilisinin meri, hakim ”Gürcü Arzusu” partiyasının baş katibi Kaxa Kaladze, parlamentin Regional siyasət və özünüidarəetmə komitəsinin sədri, parlament çoxluğunun üzvü İrakli Kadagişvili, eyni zamanda, ayrı-ayrı siyasətçilər də Mixeil Kavelaşvilinin Bakıya səfərini yüksək qiymətləndirib, Azərbaycanın regionda mühüm strateji əhəmiyyətə malik güclü dövlət olduğunu vurğulayıblar.

# “Azərbaycan Balkan ölkələri ilə əlaqələrə mühüm əhəmiyyət verir”

## Prezident İlham Əliyev Sloveniyanın xarici işlər nazirini qəbul edib



Prezident İlham Əliyev aprelin 17-də Sloveniya Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri Tanya Fayonu qəbul edib.

Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin inkişafından məmnunluq ifadə olundu, bu yaxınlarda xarici işlər nazirləri səviyyəsində aparılan siyasi məsləhətləşmələr qeyd edildi. Dövlətimizin başçısı Azərbaycanın Balkan ölkələri ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini dedi.

Görüşdə ölkəmizin enerji sahəsində Balkan regionu, o cümlədən Sloveniya ilə əməkdaşlığının inkişafına toxunuldu və bu sahədə perspektivlərə dair fikir mübadiləsi aparıldı. İqtisadi-ticari münasibətlərimizin genişləndirilməsi üçün iki ölkənin biznes dairələri arasında əlaqələrin inkişafının vacibliyi vurğulandı.

Söhbət zamanı Orta Dəhlizin əhəmiyyəti qeyd edildi. Bu dəhlizin Avropa ilə Çin arasında iqtisadi-ticari əlaqələrin inkişafında mühüm nəqliyyat arteriyalarından biri olduğu bildirildi və bunun Sloveniya şirkətləri üçün də əlverişli imkanlar yaratdığı vurğulandı. Bu xüsusda, Azərbaycanın və Sloveniyanın limanları arasında əməkdaşlıq məsələləri müzakirə olundu. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

# İki qonşu ölkənin birliyinin töhfəsi:
# SABİTLİK VƏ İNKİŞAF



İki qonşu ölkənin, Azərbaycan və Gürcüstanın dostluq münasibətlərinin dərin tarixi kökləri olduğu bəllidir. Ölkələrim arasında çox yaxşı, çox mehriban münasibətlər hələ bundan öncə də olub və dəfələrlə öz bəhrəsini də verib, yenə də öz bəhrəsini verməkdədir. Xüsusən də, enerji və nəqliyyat tranziti sahəsində birgə təşəbbüslər göz önündədir. Unutmaq lazım deyil ki, əvvəla, məhz həmin tranzitin, sinerjinin Cənubi Qafqaz regionunu beynəlxalq biznes üçün açıq effektiv biznes platformasına çevirməsi təkzibedilməzdir. Digər tərəfdən də, nəzərdən qaçırmaq lazım deyil ki, Azərbaycan və Gürcüstan olmaqla, bu iki qonşu ölkə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayır və bu reallığı nəinki avropalılar, elə bütün dünya ictimaiyyəti də yaxşı bilir. Yaxşı bilir ki, Cənubi Qafqazda iki qonşu ölkənin birliyi fonunda hər iki ölkə üçün etimad mühiti, sabitlik, inkişaf özünü göstərir və daha böyük ümidlərə əsas verir.

## Dövlət başçımızın ölkələrimizi birləşdirən çoxsaylı investisiya layihələrinin böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırması təsadüf deyil

Sözsüz ki, Azərbaycanın və Gürcüstanın birgə nəqliyyat və enerji layihələri vasitəsilə uzun illər sıx bağlı olduğu da günümüzün reallığıdır. Bunu da təkzib etmək olmaz ki, hər iki ölkənin ərazisindən neft və qaz tranzit boru kəmərləri şəbəkəsi keçir və bağlılıq artıq uzun illərdir mövcuddur. Sirr də deyil ki, Gürcüstan limanlarında neft, yanacaq və neft-kimya məhsullarının daşınması üçün terminallar tikilib və bu terminallar vasitəsilə Azərbaycan, eləcə də Mərkəzi Asiya ölkələrindən xammal Qara dəniz və Orta Asiya ölkələrinin enerji bazarlarına uğurla ixrac olunur. Eyni zamanda, elektrik enerjisinin Türkiyə bazarına ixracını, həmkarının bir sıra Cənubi Avropa ölkələrinə ötürülməsi nəzərdə tutulan layihələrini də Bakı məhz son illərdə Tbilisi ilə tərəfdaşlıq fonunda həyata keçirir.

Ölkəmiz Azərbaycanın məhz Gürcüstanla birgə həyata keçirdiyi neft-qaz layihələrinin, neft-qaz kəmərlərinin, nəqliyyat-kommunikasiya layihələrinin həqiqətən çox böyük əhəmiyyət kəsb etdiyi də bəllidir və bunu sübut etməyə də ehtiyac qalmır. Avropalılar özləri belə yaxşı bilirlər və etraf da edirlər ki, hazırda Avropanın enerji təhlükəsizliyi məsələsinin təmin olunması məhz Azərbaycan və Gürcüstansız mümkün belə deyil. "Hazırda Azərbaycan 12 ölkəyə, o cümlədən Gürcüstana təbii qaz ixrac edir", deyə mətbuata öz həmkarı ilə birgə bəyanatında bildirən Azərbaycan Prezidenti cənab İlham Əliyev diqqətə layiq məqamlara məharətlə toxunub. Xüsusən də, nəqliyyat-kommunikasiya sektorunda əldə olunan nailiyyətlərə, yeni dəmir yollarının və limanların tikintisinə diqqəti cəlb etməklə, ölkə rəhbərimiz məhz həm Azərbaycanda, həm də Gürcüstanda böyük sinerjinin yaradılması və Orta Dəhlizinin tərkib hissəsinə çevrilməsini də təsadüfi, eləcə də səbəbsiz olaraq vurğulamayıb. Azərbaycan Prezidenti məhz ölkələrimizi birləşdirən çoxsaylı investisiya layihələrinin həm dövlətlərimiz və xalqlarımız, həm də daha geniş coğrafiya üçün böyük əhəmiyyət kəsb etdiyini xüsusilə diqqətə çatdırıb.

## Uğurlu ikitərəfli iqtisadi əməkdaşlığın beynəlxalq kontekstdə daha böyük potensiala malik olduğu hamı tərəfindən qəbul olunur

Azərbaycanla Gürcüstanın əməkdaşlığının məhz ikitərəfli səviyyədə çox fəal inkişaf etdiyi diqqətdən kənarda qala bilməz. Bu əməkdaşlığın fəal olmasını təsdiq edən kifayət qədər fakt və arqumentlər var. Xüsusilə, statistik göstəricilər bu reallığı daha aydın şəkildə göstərir və təsdiq edir. Beləki, əgər bu gün Gürcüstanda Azərbaycan kapitallı 650-yə yaxın şirkət fəaliyyət göstərirsə, bunun fəal əməkdaşlıqdan başqa adı ola bilməz. Yaxud da, ümumilikdə Azərbaycan 1995-ci ildən, yəni müstəqilliyini bərpa etdikdən bu günə kimi Gürcüstan iqtisadiyyatına 3,6 milyard dollardan çox sərmayə qoyubsa, deməli, bu özü də iki qonşu ölkə arasında əməkdaşlığın məhz ikitərəfli səviyyədə çox fəal inkişaf etdiyini isbatlayır.

Qoyulan investisiyaların Kulevi limanındakı neft terminalına və digər infrastruktura, eləcə də neft bazalarına və yanacaqdoldurma məntəqələri şəbəkəsinə, paylayıcı qaz kəmərlərinə və digər bu kimi istiqamətlərə yönəldilməsi də nəzərəçarpan məqamdır. Azərbaycan qazı ixracının ümumi həcminin təxminən 10%-i Gürcüstana gedirsə və eləcə də qonşu ölkədə istehlak edilən "mavi" yanacağın təxminən 80%-i Azərbaycan mənşəlidirsə, deməli, sadalananlar və qeyd olunanlar zərrə qədər də şübhə yarada bilməz. Daha dəqiq desək, iki qonşu ölkənin birliyinin inkişafa zəmin yaradan töhvəsi hazırda qətiyyən təkzib olunmur və ələlxüsus da enerji sektorunda fəal olan uğurlu ikitərəfli iqtisadi əməkdaşlığın beynəlxalq kontekstdə daha böyük potensiala malik olduğu hamı tərəfindən qəbul olunur.

## Azərbaycanla Gürcüstanın birliyi olduqca əhəmiyyətli hesab olunmaqdadır...

Azərbaycanın təbii qazının Gürcüstan vasitəsilə ixrac edilməsi və ötən il ümumi qaz ixracının həcminin 25,2 milyard kubmetrə çatması və bunun da məhz 2023-cü illə müqayisədə 5,8% çox olması dinamik inkişafdan xəbər verir. Xüsusən də, məhz Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində ölkəmizin etibarlı və strateji əhəmiyyətli tərəfdaş statusu bu inkişafın, sabitliyin təsdiqi hesab olunur. Avropanın enerji və mənzil təsərrüfatı üzrə komissarı Den Yorgensenin dedikləri bu məqamda tamamilə yerinə düşür. "2024-cü ildə Avropa İttifaqı Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycandan təxminən 11,7 milyard kubmetr qaz idxal edib ki, bu da 2021-ci illə müqayisədə 44% çoxdur və Aİ Azərbaycanla Strateji Enerji Tərəfdaşlığının həyata keçirilməsini davam etdirməkdir", deyə Yorgensenin bildirdikləri, etirafı ölkəmizin Avropanın enerji təhlükəsizliyində artan əhəmiyyətini bir daha sübut edir.

Aİ ilə "yaşıl" enerji sahəsində uzunmüddətli əməkdaşlıq baxımından Azərbaycan və Gürcüstan artıq Türkiyə və Avropa bazarlarına elektrik enerjisinin tranziti seqmentində də əməkdaşlığı fəal şəkildə gücləndirir. Bərpa olunan enerji mənbələri seqmentini fəal şəkildə inkişaf etdirən Azərbaycanda uzunmüddətli perspektivdə təsirli güc artıqlığının yaranacağı bəllidir və "yaşıl" elektrik enerjisinin təxminən 80%-nin ixracının planlaşdırılması da bu baxımdan başadüşüləndir. Elektrik enerjisinin təxminən 90% olmaqla su elektrik stansiyalarında istehsal olunan, elektrik enerjisini Türkiyə və Avropa bazarlarına ixrac etməyi planlaşdıran Gürcüstanın özünün də məhz bərpa olunan enerji potensialına malik olmaqla, oxşar istiqamətdə irəliləməsi faktı da ortadadır. Deməli, iki ölkə arasında əməkdaşlıq, birlik ancaq inkişafa, sabitliyə töhvə verir və bu baxımdan da, Azərbaycanla Gürcüstanın birliyi olduqca əhəmiyyətli hesab olunmaqdadır...

***İnam Hacıyev***

# Tarixi dini-mədəniyyət abidələri ilə zəngin Odlar Yurdu

*18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür*



Aprelin 18-i dünyada Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Bu əlamətdar gün Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (İCOMOS) təklifi üzrə UNESCO tərəfindən 1983-cü ildə təsis olunub. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir. Təbii ki, tarixi abidələr daş yaddaşımıza çevrilib və hər bir xalqın kimliyini, keçdiyi tarixi yolu xatırladır. Ölkəmizdə yaşı əsrləri və minillikləri əhatə edən tarixi abidələrin mövcudluğu fikrimizi tamamlayır. Azıx mağarasından tapılmış qədim insanın çənə sümüyü, Qobustanda aşkar edilmiş yaşayış məskənləri Azərbaycanda ən qədim dövrlərdən insanların məskunlaşdığını təsdiqləyir. Tarixin müxtəlif dövrlərində ölkəmizin ərazisində dövlətlərin yaranması ilə qədim şəhərlər salınıb, müdafiə tikililəri, əzəmətli qala divarları inşa olunub. Orta əsrlərə aid abidələr Qız Qalası, Möminə Xatun, Qarabağlar, Gülüstan, Allah-Allah türbələri, Şirvanşahlar sarayı, Şəki xan sarayı, Şuşa şəhərinin abidələri və s. nəinki Şərq, hətta dünya memarlığının ən gözəl incilərindəndir. Abidələrin və tarixi yerlərin dağıdılması xalqın, millətin varlığının məhvi deməkdir. Hazırda dünyada baş verən siyasi proseslər nəticəsində minlərlə abidə məhv olmaq təhlükəsindədir. Bu baxımdan Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün təsis olunması böyük əhəmiyyətə malikdir. Abidələr və tarixi yerlərin məhv olmaq təhlükəsi ölkəmizdən də yan ötməyib. Son illər ölkəmizdə tarixi abidələrin bərpası və qorunması istiqamətində bir sıra layihələr icra olunub. Ölkə başçısının böyük diqqət və qayğısı sayəsində ölkəmizdə tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir. Xalqımızın yaratdığı mədəni irs nümunələrinin dünyada tanıdılması istiqamətində də uğurlara imza atılıb. İçərişəhər memarlıq kompleksi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Qobustandakı muzey isə 2013-cü ildə Avropanın ən yaxşı muzeyləri sırasında olub.

## ZƏNGƏZUR QƏZASINDA 35 MƏSCİD TALAN EDİLƏRƏK YANDIRILDI

30 ilə yaxin işğal altında olan ərazilərində və Qərbi Azərbaycanda vəhşi işğalçılar abidələrimizə, bizim tariximizlə, mədəniyyətimizlə bağlı yerlərə divan tutublar. Bu abidləri yer üzündən silməklə, keçmişimizi, yaddaşımızı silməyə çalışıblar. Tarixi mənbələrdə qeyd olunduğu kimi, Azərbaycan torpaqları 1828-ci ildə "Türkmənçay" müqaviləsi ilə Rusiya və İran arasında bölüşdürüldükdən sonra çar Rusiyası mərhələli şəkildə ermənilərin bu ərazilərdə məskunlaşmasına imkan yaratdı. Özlərinə yer eyləyən ermənilər illər uzunu öz murdar niyyətlərini həyata keçirməyə başladılar. Onlar Azərbaycan torpaqlarını işğal etməklə, tarixi-mədəni irsimizi, adət-ənənələrimizi, musiqimizi və incəsənətimizi özününküləşdirməyə cəhd edir, qədim tarixə malik olduqlarını bu yolla sübut etməyə çalışıblar. Məkrli niyyətlərinə nail ola bilmədikdə isə tarixi-mədəniyyət abidələrini, məscidləri, qəbiristanlıqları vəhşicəsinə dağıdıb, yer üzündən siliblər. Qərbi Azərbaycan indiki Ermənistan torpaqlarında 1913- 1918-ci illərdə İrəvan şəhərində Sərdar sarayı kompleksi, çoxsaylı karvansaralar, hamamlar, türbələr dağıdılmışdır. Şah İsmayıl Xətainin öz vəziri Rəvanqulu xana tikdirdiyi İrəvan qalası, o cümlədən 1870-dən çox Azərbaycan-türk mənşəli tarix və mədəniyyət abidələri, bir o qədər də qədim və orta əsrlərə aid qəbiristanlıq, heykəllər, incəsənət nümunələri tamamilə məhv edilib. O illərdə İrəvan qəzasında 42, Eçmiədzin qəzasında 33, Zəngəzur qəzasında 35 məscid talan edilərək yandırılmışdır.

1988-ci ildə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmağa başladılar. Kütləvi terrora məruz qalan azərbaycanlılar məcburiyyət qarşısında qalıb öz dədə-baba yurdların tərk etdilər. Bu ərazilərdə onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi. Ulu Öndər Heydər Əliyev deyirdi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

## İRƏVANDA ŞƏRQ MEMARLIĞI ÜSLUBUNDA İNŞA EDİLMİŞ TARİXİ-MEMARLIQ ABİDƏLƏRİ

Qərbi Azərbaycan ölkəmizin qədim bölgələrdən biridir. Burada mövcud olan qəbirsanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. bu məkanın tarixinin göstəricisidir. Böyük bir irsin nümunələri bu yerlərdədir. 1918-ci ildə Cənubi Qafqazda ilk erməni dövləti yarandıqdan sonra İrəvan şəhəri Ermənistanın paytaxtına çevrilmişdir. Müasir İrəvan şəhərində ermənilərə məxsus yaşı 200 ildən artıq bir dənə də olsun tarixi-memarlıq abidəsi mövcud deyil. Çünki İrəvan şəhərində ermənilər XIX əsrin əvvəllərində Rusiyanın İrəvan xanlığını işğalından sonra tədricən İran və Türkiyədən köçüb gətirilərək məskunlaşdırılmışlar. İrəvandakı tarixi-memarlıq abidələri Şərq memarlığı üslubunda inşa edilmişdi. Səyyahlar və salnaməçilər öz əsərlərində İrəvanı əsl müsəlman şəhəri kimi təsvir etmişlər. İrəvan şəhəri karvan yollarının kəsişdiyi məkanda yerləşdiyi üçün burada çoxlu karvansaralar və ticarət meydanları salınmışdı. Mənbələrdə göstərilir ki, XIX əsrin əvvəllərində İrəvanda 8 karvansara mövcud olmuşdur. Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Tahir, Sulu, Susuz, Avşar, Hacı Əli karvansaralarında üst-üstə 851 köşk mövcud olmuşdur. İrəvanda Şərq memarlıq üslubunda 8 hamam - Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim, Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy hamamları mövcud idi. XIX əsrin sonları, XX əsri əvvəllərində İrəvan şəhərində adları azərbaycanca səslənən onlarla küçə mövcud idi. Qədim İrəvanda bu küçələr məşhur idi: Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan, Qəriblər ocağı, Dəyirmanlı, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Qəbiristan, Naib, Mir Cəfər, Rüstəm xan, İmamrə, Korbulaq, Bəy, Kətan, Dükanlı, Sallaxlar və s. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra məscidlər bir-birinin ardınca dağıdılmışdır. Göy məsciddə İrəvan şəhərinin tarix muzeyi yerləşdirilmiş, Zal xan məscidi rəssamların sərgi salonuna çevrilmişdi. Erməni vandalları İrəvan qalasını və onun içərisində yerləşən bütün tarixi-memarlıq abidələrini tədricən yer üzündən sildilər. 1924-cü ildə İrəvanın baş planı hazırlanaraq həyata keçirilməyə başlandıqdan sonra şəhərdə mövcud olan azərbaycanlılara məxsus tarixi-memarlıq baxımından əhəmiyyət kəsb edən bütün abidələrini bir-birinin ardınca yox etdilər ki, gələcəkdə İrəvanı erməni şəhəri kimi təqdim edə bilsinlər.

## "MƏNFUR DÜŞMƏN BİZİM DİNİ ABİDƏLƏRİMİZİ DAĞIDIB, TƏHQİR EDİB"

Prezident İlham Əliyev çıxışlarının birində ermənilərin vandallıq əməllərini ifşa etmişdir. "İşğal dövründə Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində şəhər və kəndləri, bütün mədəni və dini abidələri qəsdən dağıdıb. Hətta qəbiristanlıqlar yerlə-yeksan edilib", - deyərək bildirib ki, Ermənistanın məqsədi əsrlər boyu həmin ərazilərdə yaşamış azərbaycanlıların izini silmək olub.

Ermənistanda Azərbaycan xalqının tarixi-mədəni irsinin dağıdılması, silinməsi prosesinin 90-cı illərdən sonra geniş vüsət alıb. Bizim əzəli torpaqlarımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar üzərində Ermənistan dövləti yaradılıb. Tarixi mənbələr də sübut edir ki, Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır və Azərbaycanın da tarixi həqiqəti bərpa etmək haqqıdır. Təbii ki, Azərbaycanın əsrlərə söykənən tarixi faktları kifayət qədərdir ki, hər bir ərazimizin coğrafi-tarixi mənbələrini əsaslandırmağa dəlillərimiz var. Utopik fikirlərlə yaşayan Ermənistan öz xülyalarından əl çəkərək, tarixi həqiqətləri qəbul etməlidir. Sanki düşüncələri ilə öz dünyalarında "Böyük Ermənistan" yaradırlar. Sənəd, tarix və faktlar bu "xalq"a yad olan məfhumlardır.

Şanlı Azərbaycan Ordusunun 44 günlük zəfər yürüşü doğma Qarabağımızın azadlığa qovuşdurulması ilə yanaşı, tarixi, mədəni irsimizi də erməni vandallarından xilas etdi. 30 il müddətində işğal altında saxladıqları bütün tarixi, dini abidələrimizi məhv ediblər. Cəbrayılda 132 tarixi abidə, Ağdam, Zəngilan, Qubadlı, Kəlbəcər və Füzuli rayonlarında yüzlərlə tarixi, memarlıq və mədəniyyət abidələri, on minlərlə eksponatı olan muzeylər düşmən əlinə keçərək viran edilmişdir.

Ermənilər ələ keçirdikləri ərazilərdə 12 muzeyi və 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət edərək yandırıblar. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunub, 44 məbəd və 9 məscid təhqir edilib. Dağıdılan və yandırılan 927 kitabxanada 4 milyon 600 min kitab və misilsiz əlyazma nümunələri məhv olunub.

Ermənilər tərəfindən ən çox dağıntılara və tələfata məruz qalan islam dini abidələri, yəni məscidlər, türbələr və digər inanc yerləridir. Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınmışdır. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub.

## "DÜŞMƏN BİZİM DİNİMİZİ TƏHQİR EDİB, BÜTÜN MÜSƏLMANLARI TƏHQİR EDİB"

Dövlətimizin başçısı işğaldan azad olunmuş Zəngilan rayonunda mənfur düşmən tərəfindən dağıdılan məsciddə olarkən "Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb", - deyərək dünyanın buna 30 il ərzində səssiz qaldığını qeyd edib: "Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib. Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib."

## BÖYÜK QAYIDIŞ: BƏRPA OLUNAN TARİXİ-DİNİ MƏDƏNİYYƏT ABİDƏLƏRİ

Əsrlər boyu xalqımızın bu torpaqlarda qurub-yaratdığı evlər, muzeylər, məscidlər, tarixi-mədəni abidələrimiz ermənilər tərəfindən dağıdıldı, viran qoyuldu, talan edildi. Artıq torpaqlarımıza Böyük Qayıdış başlayıb və möhtəşəm quruculuq işlərinə, o cümlədən ölkə Prezidenti tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşanın bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə də start verilib. Tezliklə bütün dünya Şuşanın, Qubadlının və digər məkanların yenilənmiş simasını görəcək, erməni vandalları isə törətdikləri vəhşiliklərin cəzasını tarix boyu çəkəcəklər.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həmin ərazilərdə abadlıq-quruculuq işləri geniş vüsət alıb. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Şuşada Mehmandarovların malikanə kompleksi açılıb. Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması ilə yanaşı Şuşada Yaradıcılıq Mərkəzi də istifadəyə verilib. Görülən və görüləcək bütün işlər bunlarla bitmir. Şuşada Yuxarı Gövhər Ağa məscidinin yenidənqurma və bərpa işlərindən sonra açılışı, Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları və s. Şuşanın yenidən qurulmasının təzahürüdür. Artıq işğaldan azad olunan torpaqlarimızda da tarixi abidələrimiz bərpa olunur. Həyat öz axarına qayıdır.

***Zümrüd BAYRAMOVA***

# “Bölgənin inkişafı hər üç dövlətin birgə inteqrasiyası ilə gedir”

“Gürcüstan Prezidenti Mixeil Kavelaşvilinin Azərbaycana səfəri iki qonşu və dost ölkə arasındakı münasibətlərin yeni mərhələdə başlanğıcının çox yaxşı göstəricisidir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Musa Quliyev deyib. Onun sözlərinə görə, təsadüfi deyil ki, Gürcüstan Prezidenti özünün ilk rəsmi səfərini Azərbaycana etdi: ”Bu da o deməkdir ki, Gürcüstan Azərbaycana həm qonşu dövlət, həm də strateji tərəfdaş kimi olduqca böyük önəm verir. Cənab Prezidentlə Gürcüstan Prezidentinin apardığı müzakirələr, mətbuata verdiyi açıqlamalar, Gürcüstan Prezidentinin Azərbaycanın Baş naziri ilə görüşü, Milli Məclisdə parlamentin spikeri Sahibə Qafarova ilə görüşməsi, görüşdə səslənən fikirlər ona əsas verir ki, Gürcüstan-Azərbaycan dostluğu uzun illərin tarixi sınağından çıxmışdır. Bu gün də daha da ciddi şəkildə bütün əlaqələrimiz strateji tərəfdaşlıq səviyyəsində qurulmuş və möhkəmlənir.

Hər iki ölkə bir-birinin ərazi bütövlüyünü həmişə tanımışdır. Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsini, suveren Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq, abadlıq işlərinin Gürcüstan tərəfindən dəstəklənməsi və yüksək qiymətləndirilməsi münasibətlərimizin bundan sonrakı dönəmdə də artan istiqamətdə inkişafına təkan verəcəkdir. Hər iki Prezident öz bəyanatında əlaqələrimizin müxtəlif və çoxşaxəli olması və bundan sonrakı inkişaf perspektivləri haqqında dəyərli fikirlər söylədilər. Prezident İlham





Əliyevin mətbuat konfransında Azərbaycanın 12 ölkəyə neft və qaz məhsullarının ixrac etməsini, ixracın hamısının Gürcüstan üzərindən həyata keçirilməsini vurğulaması olduqca ciddi məqamlardan xəbər verir. Qısa müddət ərzində bu münasibətlərin qurulması və inkişafı hamımızın gözü qarşısında baş verib. Bakı-Tbilisi-Supsa, Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikilməsi və Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə Orta dəhlizin Azərbaycan və Gürcüstan üzərindən Avropaya uzanması olduqca böyük tarixi nailiyyətlərdir, böyük layihələrdir.

Eyni zamanda ölkələrimiz arasında tarixi, mədəni, humanitar əlaqələrin inkişafı və daha da möhkəmlənməsi prezidentlərimizin mətbuata bəyanatında və görüşlərində səslənən çox aktual fikirlərdir. Gürcüstanda yarım milyona qədər azərbaycanlı yaşayır. Gürcüstan onların ana Vətənidir. Onların Gürcüstanda işləməsi, yaşaması və sosial həyatlarının təmin edilməsi həm Azərbaycan dövlətinin, həm də Gürcüstan dövlətinin diqqət mərkəzindədir. Təsadüfi deyil ki, Gürcüstan Prezidentinin Azərbaycana səfərində onu müşayiət edən şəxslərin sırasında iki azərbaycanlı gənc deputat da var idi. Savalan Mirzəyev və Zaur Dargəli gənc deputatlardır. Gürcüstan hakimiyyəti, prezidenti ölkələrimiz və xalqlarımız arasında münasibətlərə olduqca ciddi fikir verir”.

”Gürcüstan Prezidentinin həm cənab Prezidentlə bəyanatında, həm də Milli Məclisdəki çıxışında Gürcüstanın Azərbaycanla əlaqələrinə ciddi önəm verməsi və bu əlaqələrin xüsusilə hər iki dövlətin təhlükəsizlik məsələsi, ərazi bütövlüyünün tanınması məsələsi, suverenlik, əməkdaşlıq məsələsinin inkişafı, bütövlükdə Qafqazı dünyanın inkişaf edən, gözəl, mütərəqqi, sülh və sabitlik bölgəsinə çevirmək üçün atılan addımların vacibliyini vurğuladı. Gürcüstan Prezidenti öz çıxışında, Azərbaycanda parlamentdə görüşərkən Sahibə Qafarova da bölgədəki sabitliyin çox ciddi təmin olunması üçün Ermənistan və Gürcüstan arasında böyük sülh müqaviləsinin imzalanmasının vacibliyi vurğuladılar. Cənab Prezident İlham Əliyevin də bəyanatında söylədiyi kimi Ermənistan və Azərbaycan arasında artıq sülh müqaviləsinin mətni də razılaşdırılıb. Yalnız iki məsələnin Ermənistan tərəfindən həll olunması qalır. Ermənistan konstitusiya aktında Azərbaycanın ərazi bütövlüyünə müdaxilə edilməsi və Azərbaycana ərazi iddiası məsələsinin aradan qaldırılması, heç bir fəaliyyəti olmayan və bölgədəki sülh prosesinə əngəl törədən Minsk Qrupunun da buraxılması məsələsi qısa zamanda öz həllini tapacaqdır.

Bölgənin inkişafı hər üç dövlətin birgə inteqrasiyası ilə gedir. Hesab edirəm ki, bu görüş olduqca böyük əhəmiyyətə malikdir. Cənab Prezident İlham Əliyevlə görüş zamanı Gürcüstan-Azərbaycan dostluq qrupunun rəhbəri tərəfindən söylənilən və cənab Prezident tərəfindən də dəstəklənən gənclərin bir platformada birləşməsi, eyni layihələri həyata keçirməsi və hər iki ölkənin gənclər forumunun yaranması ideyası da gələcəyə hesablanmış, dostluq, qardaşlığımızı gücləndirən addımlardan biridir” - deyə o, əlavə edib.

***S. Ağazadə***

# “Düşüncələr və vərdişlər arasında tam bir əlaqə var”



*PSİXOLOQ İZAH ETDİ*

”İnsan düşündükcə beynində neyronlar arasında elektrik impulsları yaranır və bu impulslar sinapslar vasitəsilə məlumat ötürülməsini təmin edir. Müəyyən düşüncələr tez-tez təkrarlananda bu neyron yolları daha da güclənir. Elmdə bu ”neyronal plastiklik” adlanır. Yəni, beyin özünü dəyişdirə və uyğunlaşdıra bilir. Məsələn, bir insan daim neqativ düşünürsə, beynində neqativliklə bağlı neyron yollar daha da möhkəmlənir”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq, Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmov deyib.



O bildirib ki, eyni cür düşünmək, eyni davranmaq və eyni duyğular yaşamaq insanı dəyişdirə bilər: ”Ancaq bu dəyişiklik hər zaman müsbət olmur. Daim eyni duyğu və davranış modeli, insanı psixoloji baxımdan ”donmuş” bir vəziyyətə sala bilər. Məsələn, hər zaman qorxu içində yaşayan biri zamanla təşviş pozuntuları və ya depressiya ilə üzləşə bilər. Bu da onu göstərir ki, eyni cür düşünmək bəzən inkişafı əngəlləyir. Düşüncələr və vərdişlər arasında tam bir əlaqə var. Vərdişlərimiz bir növ avtomatlaşdırılmış düşüncə və davranış nümunələridir. Məsələn, hər səhər durub telefona baxmaq düşüncə ilə yox, artıq vərdiş halına gəlmiş bir davranışdır. Düşüncə dəyişmədikcə, vərdiş də dəyişmir. Yaxud əksinə, düşüncəni dəyişməklə vərdişi də dəyişmək mümkündür. Bu, ”kognitiv davranış terapiyası”nın əsasını təşkil edir. Bəli, düşüncələr insanda stres yarada bilər. Bir çox hallarda stresin mənbəyi xarici deyil, daxili düşüncələrimizdir. ”Məni qiymətləndirməyəcəklər”, ”Alınmayacaq”, ”Nə edəcəyimi bilmirəm” kimi avtomatik neqativ düşüncələr kortizol hormonunun - yəni stres hormonunun səviyyəsini artırır. Bu isə orqanizmə həm fiziki, həm psixoloji zərər verir”.

”Beyin kodlaması beyindəki məlumatların və davranış nümunələrinin müəyyən yollarla yerləşməsi və avtomatlaşdırılmasıdır. Yəni, düşüncələrimizin və yaşantılarımızın beyində ”yazılması” və vərdiş halına gətirilməsi prosesidir. Müsbət beyin kodlaması insana özünəinam, hədəfə fokuslanma və daha sağlam münasibətlər qazandırır. Düşüncə gücü insanın öz həyatını dəyişə biləcək ən böyük daxili resursudur. ”Necə düşünürsənsə, elə yaşayırsan” prinsipi burdan gəlir. Düşüncə dəyişdikcə beyin də dəyişir, beyin dəyişdikcə davranış və həyat keyfiyyəti də dəyişir. Elmi tədqiqatlar göstərir ki, pozitiv düşüncə və zehni proqramlaşdırma (yəni düzgün beyin kodlaması) insanın həm sağlamlığını, həm də uğurlarını artırır” - deyə o, əlavə edib.

***Söylü***

# Paşinyanın blefi:

## Ermənistan əsas problemi maskalamağa çalışır

**Ermənistanın baş naziri Nikol Paşinyanın Milli Assambleyada dünənki çıxışı "konstruktiv" bəyanatlarla doludur. Ermənistanın sülh tezisləri arxasında gizlənərək danışıqlar apara bilməməsi bir daha nümayiş etdirildi.**

Paşinyan ATƏT-in Minsk Qrupunun buraxılması və Bakı ilə sülh müqaviləsinin imzalanması təklifi ilə yanaşı, bunu Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının olması məsələsi ilə əlaqələndirib və orada belə müddəaların olmadığını əsaslandırıb. Üstəlik, o, İrəvana qarşı irəli sürülən ittihamları rədd etməklə yanaşı, həm də ərazi iddialarının əksinə, Azərbaycan Konstitusiyasında "təsbit edildiyini" bəyan edərək, günahı üzərindən atmağa çalışıb. Beləliklə, Ermənistan tərəfi növbəti dəfə nəinki məsuliyyətdən yayındı, əksinə, əks ittihamlar irəli sürərək, Bakını yeni siyasi sövdələşmə mərhələsinə vadar etməyə





çalışdı.

"Əgər konstitusiyamızla bağlı məsələ Azərbaycan üçün bəhanə yox, həqiqi narahatlıqdırsa, bu narahatlığı aradan qaldırmağın ən effektiv yolu sülh müqaviləsi imzalamaqdır, əksinə yox",- deyən Paşinyan sülh müqaviləsi bağlanması üçün Bakıya mahiyyətcə yeni şərtlər irəli sürüb. Paşinyan Ermənistan konstitusiyası, Minsk qrupunun ləğvi və sülh müqaviləsinin imzalanması ətrafında hansı yeni





oyuna başlayıb? Bu sualı azərbaycanlı və rusiyalı politoloqlar caliber.az-a şərh ediblər. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.

Azərbaycanlı politoloq, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin sədri, diplomat Fərid Şəfiyev hesab edir ki, İrəvan yenidən oynayır və hamını çaşdırmağa çalışır.

"Uzağa niyə getmək lazımdır- analoji presedentə malik konstitusiyaların islahatı ilə bağlı beynəlxalq təcrübə var. Məsələn, İrlandiyada münaqişənin həlli çərçivəsində orada referendum keçirilərkən. Lakin qeyd etmək lazımdır ki, İrlandiya məsələsində referendumun keçirilməsi öhdəliyi sülh sazişində açıq-aydın göstərilməyib və referendum belə bir sənədin imzalanmasının 1 ay sonra keçirilib. Sülh müqaviləsi layihəsi ona görə alınmır ki, erməni tərəfi bu cür dəyişikliklərə qəti müqavimət göstərir.

Minsk qrupuna gəlincə, Paşinyan və onun ətrafı onun rəsmi şəkildə ləğvi üçün konsensusun zəruriliyini qeyd etməyi xoşlayır. Amma xatırlasaq, ATƏT-in Minsk Qrupunun buraxılmasına qarşı çıxan təkcə Ermənistan deyil, həm də Fransa, eləcə də ABŞ-da Bayden administrasiyası idi.

Tamamilə mümkündür ki, sabah bu qrupun ləğvi məsələsi yenidən gündəmə gəlsə, erməni tərəfi və müttəfiqləri konsensusun olmadığını əsas gətirərək, sadəcə olaraq, yenidən qərarın qarşısını alacaqlar. Bu tipik siyasi oyundur.

Bütün bunlar gələcəyə hesablanmış şəkildə edilir. Ermənistan rəhbərliyi geridə "yuvalar"- 10-20 ildən sonra qaytarıla biləcək mexanizmlər və institutlar qoyub, onlar üçün vacib olan məsələni yenidən gündəmə gətirmək istəyir.

Minsk Qrupu mövcud olduğu müddətcə, faktiki olaraq qeyri-funksional olsa belə, o, "davam edən münaqişə" ilə məşğul olan struktur kimi qəbul ediləcək.

Eyni şey Ermənistan konstitusiyasına da aiddir: nə qədər ki, orada ərazi iddiaları kimi şərh edilə bilən müddəalar var, bu, gələcək spekulyasiya və təzyiqlər üçün potensial səbəbdir",- F.Şəfiyev vurğulayıb.

Rusiyalı politoloq Vladislav Gerdinin fikrincə, hər şey onu göstərir ki, İrəvan öz yeni strategiyasını işə salmağa çalışır, burada Ermənistan Azərbaycanın bəzi şərtləri ilə razılaşır, lakin daha vacib olan digər şərtləri qəbul etmək istəmir.

"Təəccüblü deyil ki, İrəvan ATƏT-in Minsk Qrupunun ləğvinə şifahi də olsa, razılıq verir. Mahiyyət etibarı ilə bu, artıq praktiki olaraq aktuallığını itirmiş ölü strukturdur. Üstəlik, bu, Azərbaycanın aydın və dəyişməz tələbidir.

Ona görə də Paşinyan Bakı ilə mübahisə etməmək qərarına gəldi- əgər bu vəziyyətdən, necə deyərlər, daha heç nə sağmaq olmazsa, niyə Azərbaycanın açıq-aşkar qıcıqlanmasına səbəb olsun? Amma Paşinyan referendum və Ermənistan konstitusiyası məsələsi ilə oynamaq qərarına gəlib, az qala açıq sövdələşmə təşkil edib. Bakını sülh müqaviləsi və Minsk qrupunun buraxılması haqqında saziş imzalamağa, lakin Ermənistan Konstitusiyasında ərazi iddialarının olmasına göz yummağa və bu problemi mövcud olmayan bir şey kimi unutmağa çağırır.

Bu taktikanı bir müddət əvvəl Türkiyə-Ermənistan sərhədinin açılması ilə bağlı danışıqların tezliklə aparılmasını təklif edən xarici işlər naziri Mirzoyan nümayiş etdirib. Mirzoyanın sözlərinə görə, bu addım Azərbaycanla sülh müqaviləsinin imzalanmasının irəliləyişinə müsbət təsir göstərəcək.

Daha bir aşkar sövdələşmə, onların maraqları ilə Azərbaycanın maraqlarını bir sövdələşmədə birləşdirmək cəhdidir. Düşünürəm ki, baş nazir Paşinyan anlayır ki, belə bir blef çətin ki, nəticə versin.

Bakı bir neçə dəfə sübut edib ki, buna yüngül yanaşmaq olmaz və bu mövqe dəyişməz olaraq qalır, lakin Paşinyan yenə də ziddiyyətlər üzərində oynamağa, oyunda ən azı özü üçün üstünlük əldə etməyə çalışır. Ən pis halda sabah biz köhnə sübut olunmuş taktikaya qayıda bilərik",- deyə V.Qerdin yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

# Azərbaycanda və dünyada boşanma mədəniyyəti NECƏDİR?

***Ailə qurmaq iki fərqli nəslin birləşməsi, tanış olması, qohumluq bağları ilə bir-birinə bağlanması deməkdir. Bir boşanma hadisəsi ilə bir neçə nəfər zərər çəkir, çox sayda mənfi və xoşagəlməz nəticələr baş verir. Boşanma, ailə problemləri və çətinlikləri çərçivəsində ən son atılan addımdır. Təəssüf ki, çox zaman atılan ən birinci addım olur. Boşanan tərəflər adətən bir-birinə düşmən kəsilir, ana bir daha uşağı göstərməyəcəyini, ata isə aliment verməmək barədə fikirlər səsləndirir. Bir sözlə ayrılan cütlüklər bir-birlərini nədəsə ittiham edir. Bu hal onu göstərir ki, boşanma mədəniyyəti deyilən mədəniyyət forması var. Azərbaycanda və dünyada boşanma mədəniyyəti necədir?***



Son 20 ildə Azərbaycanda boşanmaların sayı xeyli artıb. 1991, 2017, 2018 və 2020-ci illərdə 1000 nəfərə 1,5 boşanma, 1992, 2013, 2014 və 2015-ci illərdə 1,3 boşanma, 1993, 2006, 2008 və 2009-cu illərdə 0,9 boşanma, 1994, 1997, 2003 və 2004-cü illərdə 0,8 boşanma, 1995, 1996, 1998, 2000, 2001 və 2002-ci illərdə 0,7 boşanma, 1999-cu ildə 0,6 boşanma, 2005-ci ildə 1,1 boşanma, 2007 və 2010-cu illərdə 1 boşanma, 2011 və 2012-ci illərdə 1,2 boşanma, 2016-cı ildə 1,4 boşanma, 2019 və 2021-ci illərdə 1,7 boşanma, 2022-ci ildə 1,6 boşanma, 2023 və 2024-cü illərdə 2,1 boşanma sənədləşib. Rəsmi statistikaya görə, 2025-ci ilin ilk ayında Azərbaycanda hər 1000 nəfərə 5,4 nikah, 2,1 boşanma düşüb. Mütəxəssislər bildirir ki, boşanmaların səbəbləri arasında əsas yeri məişət zorakılığı tutur. Həmçinin maddi durumun yetərsizliyi, sonsuzluq, narkotik aludəçiliyi və s. əsas səbəblər sırasındadır.





Lakin təkcə Azərbaycanda deyil, hazırda dünyanın ən inkişaf etmiş ölkələrində də boşanmaların sayı artan sıra ilə yüksəlir. Məsələn, statistikaya görə, Macarıstanda bağlanan nikahların 67 faizi boşanma ilə nəticələnir. Bu ölkədə hər 10 kişidən biri boşanmış olur. Araşdırmalardan məlum olur ki, Macarıstanda boşamaların böyük əksəriyyətinin səbəbi çox sadə, hətta bizim üçün mənasız hesab edilən problemlərdən baş verir.

Portuqaliyada da boşanmaların sayı 68 faizdir. Statistikaya görə hər gün ölkədə azı 70 ailə boşanır. Çexiyada isə boşanma nisbəti 66 faiz olub. İsveçdə isə boşanma nisbəti 47 faizdir. Araşdırmaya görə bu ölkədə daha çox qadınlar boşanmaya müraciət edir. Belçika boşanma məsələsində bir çox ölkələri üstələyir. Bu ölkədə boşanma nisbəti 71 faizdir və artıq belçikalılar üçün boşanma adiləşib, heç də dramatik qəbul edilmir. ABŞ-da isə boşanma nisbəti 53, Rusiyada 51 faizdir. Məlumata görə Rusiyada boşanmaların səbəbləri yaşayış yerinin olmaması, alkoqolizm və digər məsələlərdir.



Göründüyü kimi, dünyanın ən inkişaf etmiş ölkələrində belə boşanma məsələsi artıq adiləşib. Lakin Azərbaycandan fərqli olaraq adı çəkilən bu ölkələrdə boşanma mədəniyyəti var. Yəni, tərəflər artıq bir yerdə yaşamağın mümkün olmadığını qərarlaşdırıb, məhkəməyə müraciət edir, sivil yolla boşanmağa çalışır və çox zaman buna nail olur. Azərbaycanda isə çox nadir hallarda sivil yolla boşanma baş tutur.

Adətən cütlüklər qarşılıqlı ittihamlar, qalmaqallar ilə boşanır və çox zaman bu qalmaqallar boşanmadan sonra da davam edir, bəzən isə faciələrlə nəticələnir. Bununla bağlı tez-tez mətbuatda, mediada "Keçmiş ər arvadını öldürdü", "Keçmiş arvadını vəhşicəsinə döydü" və s. kimi xəbərlərə rast gəlirik. Məlum olur ki, azərbaycanlı kişilərin böyük əksəriyyəti rəsmən öz arvadından boşansa belə, onu öz mülkiyyəti hesab edir, daimi nəzarətdə saxlayır, hər bir işinə, hətta geyiminə və digər məsələlərə müdaxilə etməyə çalışır. Bəzən illərlə boşandığı keçmiş arvadını kiminləsə münasibətdə olduğunu biləndə onu öldürür və ya ağır xəsarətlər yetirir. Bəs Azərbaycanda dünya ölkələrində olduğu kimi niyə boşanma mədəniyyəti yoxdur? SİA mövzu ilə araşdırma aparıb.




**Sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev:** "Ailə qurmaq, evlilik insan həyatının ən vacib mərhələlərindən biridir. İslamda evlilik, kişi və qadının bir araya gəlib ailə qurması, uşaqlar dünyaya gətirməsi, cəmiyyətin davam etməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bu, Allahın istədiyi bir düzəndir. Lakin, hər evlilik uğurlu olmur, bəzən müxtəlif səbəblərdən dolayı evliliklər başa çatır və boşanma həyata keçirilir.

İslamda evlilik, ailə qurulması çox qiymətli bir əməl olaraq qəbul edilir. Peyğəmbərimiz (s.a.v) evliliyi təşviq etmiş və bu sahədə müxtəlif hədislərdə əhəmiyyətli mesajlar vermişdir. Lakin, boşanma İslamda mütləq olaraq haram sayılmasa da, Allahın ən xoşlamadığı bir əməl olaraq xarakterizə edilmişdir. Hədislərdə bildirilir ki, Allah boşanmanı sevməz, amma boşanma bəzi hallarda zərurət halına gələndə icazə verilir. Boşanmaların müxtəlif səbəbləri olur, ailə üzvləri arasında ciddi anlaşılmazlıq, qarşılıqlı hörməti itirmək, ağır sosial durum, xəyanət və digər ağır səbəblər göstərilə bilər.

Boşanmanın hüquqi tərəfi də çox vacibdir. İslamda evlilik müqaviləsi, dini kəbin adı altında, kişi və qadın arasında bağlanır. Lakin bu müqavilənin hüquqi bir əsası yoxdur. Bununla yanaşı, cəmiyyətimizdə bəzən insanlar dini kəbini bağlamağa önəm versələr də, rəsmi nigahı gözardı edirlər. Bu isə boşanma zamanı hüquqi məsələlərin qarışıqlığına səbəb ola bilər. Rəsmi nikah bağlanmadıqda, tərəflərin mülki hüquqları, miras məsələləri, əmlak bölüşdürülməsi və digər hüquqi məsələlər əngəllər törədir.

Rəsmi nikah, boşanma zamanı hər iki tərəfin hüquqlarını qoruyur və ədalətli mülkiyyət bölüşdürülməsini təmin edir. Bu səbəbdən, gənclər evlənməzdən əvvəl dini kəbinlə yanaşı, rəsmi nikah da bağlamalıdırlar.

Boşanmanın etik tərəfi isə daha mürəkkəb bir məsələdir. Cəmiyyətdə boşanma hallarında, xüsusən də insanlar arasında qarşılıqlı ittihamlar və böhtanlar çox yayğındır. Qadın kişini xəyanət etməkdə, kişi isə qadını narkomaniya və ya digər ciddi günahlarda ittiham edir. Bu, əksər hallarda, boşanmanın etik prinsiplərinə riayət edilməməsindən qaynaqlanır. Boşanma zamanı tərəflər bir-birlərinə sübutsuz ittihamlar yönəldərək, hər biri öz mövqeyini gücləndirməyə çalışır. Bu, yalnız ailə üzvləri arasındakı münasibətləri daha da gərginləşdirir və daha böyük sosial problemlərə yol açır. Boşanma etikası, hər iki tərəfin hörmətinə, dürüstlüyünə və qarşılıqlı anlaşmasına əsaslanmalıdır. Hər iki tərəf münaqişələrini sülh yolu ilə həll etməyə çalışmalı, qarşı tərəfi alçaltmaqdan çəkinməlidir. Etik bir boşanma prosesində, hər iki tərəf bir-birini ləyaqətlə qəbul edər və nəticədə, cəmiyyətə olan təsir ən aza enmiş olar.

Evlilik və boşanma məsələləri həm dini, hüquqi, həm də etik baxımdan çox önəmlidir. İslamda evliliyə böyük əhəmiyyət verilsə də, bəzi hallarda boşanma zəruri olur. Lakin boşanmanın heç bir zaman cəmiyyətin və tərəflərin faydasına olmadığını unutmaq olmaz. Evlilikdən əvvəl dini və rəsmi nikah bağlamaq, boşanma zamanı isə hər iki tərəfin hüquqlarını qorumaq və etik prinsiplərə riayət etmək, sağlam bir cəmiyyətin yaranmasında əhəmiyyətli bir rol oynayır. Bu səbəbdən, cəmiyyətimizdə boşanma məsələlərinə daha ciddi yanaşılmalı, hər iki tərəf arasında ədalət və qarşılıqlı hörmət təmin edilməlidir".

**Uşaq, yeniyetmə və yetkin psixoloqu Nigar Ağabağırova:** "Boşanma iki nəfərin, yəni, qadın və kişinin arasında olmasına baxmayaraq, reallıqda belə olmur. Boşanma qərarına boşanmaq istəyən hər iki tərəfin ana-atası, övladları müdaxilə edir. Boşanma prosesi təbii olaraq hər iki tərəfin psixologiyasına mənfi təsirini göstərir. Çünki bu proses özü də insanın öz dünyasında yasıdır.



İstər-istəməz boşanma prosesi kişi və qadının yaxınlarını, xüsusilə də övladlarını məyus edir. Ayrılan insanların bir-birinə nifrəti, qınağı ola bilir. Sağlam şəkildə boşanma bizim mentalitetdə az hallarda olur. Çünki boşanan qadını da, kişini qınayan çox olur. Xüsusilə də, qadın qınanılır.

Boşandıqdan sonra bəzən qadın və ya kişi övladlarını qarşı tərəfə göstərməməklə içindəki hirsini çıxarmağa çalışır. Ancaq unutmamalıyıq ki, uşaqların bu prosesdə günahı yoxdur. Uşaqların gözündə onlar boşanan insanlar deyil, çox sevdikləri ana və atadır. Ümumiyyətlə, çox yaxşı olar ki, insan boşanma qərarını hirsliykən deyil, yaxsı düşünərək, müdaxilələrə imkan verməyərək özü versin".

***Söylü Ağazadə***

# Ermənistan təxribatçı əməllərinə niyə son qoymur? -
# QHT SƏDRLƏRİ ARASINDA SORĞU

***Son günlər Ermənistan silahlı qüvvələri hərbi müstəvidə təxribatlarını yenidən artırıb. Maraqlı məqam odur ki, bu təxribatlar həm də siyasi sabotajlarla paralel irəliləyir. Yəni rəsmi İrəvan həm sərhəddə hərbi, həm də diplomatik cəbhədə siyasi spekulyasiyalarını davam etdirir, münasibətlərin normallaşması ilə bağlı danışıqların müsbət ab-havasına zərbə vurur. SİA mövzu ilə bağlı QHT sədrləri arasında sorğu edərək onların bu barədə fikirlərini öyrənib.***



**Liberal İqtisadçılar Birliyinin sədri Akif Nəsirli:** ”Ermənistan Azərbaycanla səmimi sülh bağlamaq fikrində deyil. Dünya erməni-



liyi və super güclər Ermənistanı Qafqazda ona görə yaratmayıb ki, o gəlib Azərbaycanla dost olsun. Ermənistan dövlət olaraq Rusiya tərəfindən, Qərbin və ABŞ-nin xeyir-duası ilə yaradılıb ki, onun vasitəsi ilə Qafqazı nəzarətdə saxlasınlar, yaranan münaqişələr vasitəsi ilə bölgəni idarə etsinlər, öz varlıqlarını regionda qorusunlar.

Sovetlər dönəmində ölkə qapalı idi və Sovet İttifaqı bu məsələyə yalnız özü nəzarət edirdi, ona görə sakitlik idi. Bu sakitlikdən isə istifadə edərək yenə Ermənistanı gücləndirirdilər.

İndi isə bölgədə Avropa, Rusiya və ABŞ demək olar ki, açıq rəqabət aparır. Ermənistan isə bu güclərdən asılı vəziyyətdədir, müstəqil qərar qəbul edə bilmir. Bu səbəbdən də yalnız siyasi manipulyasiya ilə məşğuldur. Ermənistana da bölgədə marağı olan ölkələr bu işdə dəstək verir. Hələ bu xəmir çox su aparacaq”.

**Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyin sədri Fariz Əkbərov:** ”Ermənistanın təxribatçı əməllərinə son qoy-



mamasının əsas səbəblərindən biri onun Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü açıq şəkildə tanımayıb, beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymamasıdır. Ermənistan, tarixən Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa qarşı iddialar irəli sürərək, işğal və terror siyasəti yürüdüb.

2020-ci ildə Azərbaycanın qəhrəman Ordusu 44 günlük Vətən müharibəsində Ermənistanı məğlub edib və öz torpaqlarını azad etsə də, Ermənistan yenə də təxribatlarını davam etdirir. Bunun səbəbləri:

**1.** Ermənistanın revanşist siyasəti- Ölkə rəhbərliyi məğlubiyyəti qəbul etməyib, Azərbaycana qarşı nifrət və düşmənçilik toxumunu cəmiyyətində saxlayır.

**2.** Xarici dəstək- Bəzi xarici qüvvələr və erməni lobbisi Ermənistanı silahlandıraraq regional sabitliyə zərər vurur.

**3.** Provokasiyalarla diqqət yayındırmaq- Ermənistan öz içərisindəki siyasi və iqtisadi böhranları gizlətmək üçün sərhəd təxribatları törədir.

Azərbaycan isə daim sülh və ərazi bütövlüyünü təmin etmək üçün beynəlxalq hüquq çərçivəsində addımlar atır. Lakin Ermənistanın təxribatları davam etdikcə, Azərbaycan Ordusu hər an cavab verməyə hazırdır!”.

**”Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi” İctimai Birliyinin sədri Nadir Azəri:** ”Əslində, Ermənistanın təxribatı əməllərdən əl çəkməməsi iki amilə əsaslanır. Bunlardan biri daxili, digəri isə xarici amildir.

Daxili amil, ermənilərin antitürk xisləti ilə əlaqədardır: ”Ermənilər zaman-zaman qonşulqdakı türk xalqlarına, o cümlədən azərbaycanlılara qarşı vəhşiliklər, misilsiz cinayətlər və təxribatlar törədiblər. Bu gün də onlar öz dağıdıcı xisltələrindən əl çəkə



bilmirlər. Ona görə də davamlı təxribatlar törədirlər. Yəni necə ki, əqrəb zəhərini tökməsə dayana bilmir, ermənilər də türk xalqlarına qarşı cinayətlər törətməsə rahatlaşa bilmirlər”.

CASCFEN sədri deyib ki, xarici amil isə bəzi Qərb ölkələrinin, xüsusilə də Fransanın Ermənistanı yenidən müharibəyə cəlb etmək üçün atdığı addımlarla bağlıdır: ”44 günlük Vətən savaşında Azərbaycan Ordusu işğalçı Ermənsitana sarsıdıcı zərbə vurdu. Düşünmək olardı ki, bundan sonra onlar azacıq da olsa ağıllanacaqlar. Lakin təəssüf ki, belə olmadı. Qərbin bəzi ölkələrinin silah-sursat yardımından ruhlanan Ermənistanda yenidən rervanişşt əhval-ruhiyyə baş qaldırıb və onlar yenidən silsilə təxribatlar törətməkdədirlər. Lakin onlar bilməlidirlər ki, dəmir yumruq yerindədir və bu dəfə zərbə Ermənistan üçün ölümcül olacaq”.

**”Cəmiyyətin İnkişafı Mərkəzi” İctimai Birliyinin sədri Əhməd Abbasbəyli:** ”Bu təxribatların əsas məqsədi regionda olan mövcud geosiyasi vəziyyətlə bağlı vaxt qazanmaq, bütün vasitələrdən istifadə edərək həm siyasi, həm də hərbi cəhətdən öz xeyrinə dəyişiklərə nail olmaqdır. Bu əsas məqsədin özünü də mahiyyətcə iki alt hissəyə bölmək olar: 1-cisi daxili audotoriyaya ünvanlanmış və daxili ziddiyyərlər, didişmələr-



dən qaynaqlanan. Bununla onun Azərbaycanın sülh müqaviləsi ilə bağlı şərtlərini qəbul etmədiyini, məğlubiyyətlə barışmayacağını, revanşizmdən əl çəkməyəcəyini və bu istiqamətdə mübarizəni davam etdirəcəyini nümayiş etdirmək.

İkincisi də xarici auditoriyaya ünvanlanmış, daha çox havadarlarının vasitəsi ilə beynəlxalq miqyasda öz xeyrinə fikir formalaşdırmaqdır. Belə ki, davamlı olaraq təxribat törətməklə Azərbaycanı ciddi cavab tədbirlərinə sövq etmək və nəticə olaraq ölkəmizi haqlı olduğu halda haqsız duruma salmaq, ”aqressor”, ”sülh tərəfdarı olmayan” və s. kimi təqdim edərək, ittiham obyektinə çevirməkdir”.

***Ayşən Vəli***



# Azərbaycan III MDB Oyunlarına hazırlaşır

Dünyada idman ölkəsi kimi tanınan Azərbaycan beynəlxalq idman arenasında özünə layiqli yer tutub. Beynəlxalq yarışlarda iştirakı, eləcə də beynəlxalq yarışlara ev sahibliyi etməsi ilə ölkəmiz böyük imicə sahibdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkənin bütün sahələrində olduğu kimi, idman sahəsində də kompleks tədbirlərin həyata keçirilməsi nailiyyətlərin qazanılmasına səbəb olmuşdur. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, o cümlədən mövcud idman qurğularının qorunub saxlanılması, yenidən qurulması, beynəlxalq standartlara uyğun yeni stadionların, Olimpiya İdman komplekslərinin tikilib istifadəyə verilməsinə bu sahənin inkişafına yönəldilmişdir. Azərbaycan mötəbər idman tədbirləri üçün beynəlxalq məkana çevrildikcə beynəlxalq nüfuzu da artır. İlk Avropa Oyunlarının Azərbaycanda təşkili onun dünyada tanıdılmasında mühüm rol oynamaqla yanaşı, beynəlxalq idman hərəkatının öncüllərindən olduğunu göstərdi. 2015-ci ildə ilk Avropa Oyunları və 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə keçirilməsi ölkəmizin necə güclü potensiala malik olduğunu nümayiş etdirdi. Azərbaycanın ev sahibliyi etdiyi 500 milyonluq auditoriyaya malik Formula 1 yarışları beynəlxalq tədbirlər məkanı olan ölkəmizin təzahürüdür. Əlbəttə ki, bu gün ölkəmizin idman infrastrukturu istənilən beynəlxalq yarışın keçirilməsi üçün böyük imkanlar yaradıb. Milli Gimnastika Arenası, Bakı Olimpiya Stadionu, Bakı İdman Sarayı, Heydər Əliyev adına İdman Konsert Kompleksi, Su İdman Sarayı, Bakı Avropa Oyunları Parkı, Bakı Atıcılıq Mərkəzi və digər möhtəşəm idman qurğuları çoxfunksiyalılığı ilə seçilir.







İrimiqyaslı tədbirləri, yarışları keçirməkdə böyük təcrübəyə malik olan Azərbaycan daha bir beynəlxalq tədbirə ev sahibliyi edəcəkdir. Belə ki, Azərbaycan III MDB Oyunlarına ev sahibliyi edəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev "III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 198 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

## AZƏRBAYCANIN ƏN BÖYÜK KLUB STADİONU

Üçüncü MDB Oyunları bu il Gəncədə təşkil olunacaqdır. "Bunun üçün 14 şəhər seçilibdir və əsas oyunlar Gəncə şəhərində keçiriləcək. Gəncə şəhəri MDB Oyunlarının mərkəzi olacaq" - deyə Prezident çıxışlarının birində bildirmişdir. Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev Gəncə şəhər stadionunun yenidən qurulması işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə "Gəncə şəhər stadionunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Gəncə şəhər stadionu Azərbaycanın ən böyük klub stadionudur. Stadion 1959-cu ildə tikilərək istifadəyə verilib. Burada bir sıra məşhur oyunlar keçirilib. Azərbaycan Premyer-liqasının 2015-2016-cı il mövsümündə tamaşaçı sayında rekord vuran "Kəpəz" futbol klubunun çempionat ərzində 18 ev oyununu Gəncə şəhər stadionundan 240 min 650 azarkeş izləyib. Ən çox tamaşaçı 2016-cı il fevralın 14-də XXI turda keçirilən "Kəpəz" - "Qarabağ" görüşündə qeydə alınıb - 20 min 400 tamaşaçı. Üçüncü MDB Oyunlarında 7 min idmançının iştirakı gözlənilir. Dövlət başçısının bildirdiyi kimi, "Əgər biz 2015-ci ilin Avropa Oyunları ilə müqayisə etsək, o vaxt təqribən 5000-5500 iştirakçı var idi". Gəncə şəhərində Üçüncü MDB Oyunlarında 7000 iştirakçı, onların komandaları, heyətlərini qəbul etmək şərait yaradılmalıdır. "Həm şəhər infrastrukturu yenilənəcək, şəhər nəqliyyatı tamamilə yenilənəcək, tarixi binaların bərpası və digər infrastruktur layihələrimiz icra ediləcək ki, bizim qədim şəhərimiz olan, Nizami yurdu olan Gəncə bütün MDB məkanına və daha geniş coğrafiyaya öz gözəlliyini, eyni zamanda, tarixi simasını və müasirliyini təqdim etsin. Əlbəttə ki, biz təbii olaraq bu Oyunlara da hazırlaşırıq. Əminəm ki, bu Oyunların ev sahibi kimi Azərbaycan idmançıları, gənc idmançılar yaxşı nəticələr göstərəcəklər", - deyə Prezident bildirib.

## BEYNƏLXALQ YARIŞLARDA QAZANILAN QƏLƏBƏ

Müstəqil Azərbaycan Respublikasında dövlətin qarşısında duran tarixi vəzifələrin yerinə yetirilməsi, o cümlədən dövlətçiliyin, iqtisadiyyatın və sosial sahələrin inkişafı və möhkəmləndirilməsi, gənclərin əməyə və vətənin müdafiəsinə hazırlanması kimi məsələlərin həllinin təmin edilməsində bədən tərbiyəsi və idmanın gündəlik həyatımıza daxil edilməsi hazırkı dövrdə aktual məsələlərdən biridir. Dövlət başçısının idmanın inkişafı istiqamətində həyata keçirdiyi siyasət, bədən tərbiyəsinin və idmanın inkişafı ölkəmizin ümumi inkişaf siyasətinin tərkib hissəsini təşkil edir. Digər tərəfdən idmanın inkişafı ölkənin nüfuzu, beynəlxalq aləmdə tanınmasıdır. Azərbaycan idmançıları qazandıqları nailiyyətlərlə ölkəmizin dünyada idman ölkəsi kimi mövqelərini daha da möhkəmləndirir. Azərbaycanda idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasına da xüsusi diqqət yetirilir. Dünyada idman ölkəsi kimi tanınan Azərbaycan beynəlxalq idman arenasında özünə layiqli yer tutub. Regionlarda idmanın inkişafı, bölgələrdə yaşayan gənclərin sağlam həyat tərzi sürmələri, onların idmanla sərbəst məşğul olmaları üçün Olimpiya İdman kompleksləri mühüm rol oynayır. Dövlət başçısının bu sahəyə diqqətlə yanaşması, idmançıların qayğı və problemləri ilə yaxından maraqlanması ölkədə idmanın kütləviləşməsinə, gənc nəslin bu sahəyə sürətli axınına şərait yaradıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub və Azərbaycanı dünyaya əsl idman ölkəsi kimi tanıdıb. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi də onların yeni uğurlarında mühüm rol oynayır. Azərbaycanın "Rio-2016" XXXI Yay Olimpiya Oyunlarında 18 medal qazanaraq 14-cü yerdə qərarlaşması bu sahəyə göstərilən diqqət və qayğının bariz nümunəsi idi. Bundan başqa, milli komandamızın ölkəmizdə yüksək səviyyədə keçirilən "Bakı-2015" birinci Avropa Oyunlarında ikinci, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutması, 2018-ci ildə şahmatçılarımızın üçüncü dəfə Avropa çempionu olmaları Azərbaycan gənclərinin son illərdə idman sahəsində qazandıqları uğurların əyani göstəriciləridir. Azərbaycanın idman sahəsində daha bir mötəbər uğuru 2019-cu il iyulunda Bakıda keçirilmiş XV Avropa Gənclər Olimpiya Festivalında əldə edilib. Bu festivalı ən yüksək səviyyədə təşkil etməklə yanaşı, idmançılarımız da parlaq qələbələr qazanıblar. Festivalda 10 qızıl, 7 gümüş və 6 bürünc medal qazanan komandamız dördüncü pillədə qərarlaşıb.

## GƏNCƏ YENİ İNKİŞAF DÖVRÜNDƏ

Özünün ictimai-siyasi, sosial-iqtisadi həyatında uğurlar əldə edən Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Sosial, iqtisadi, siyasi, mədəni, bir sözlə, bütün sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr ölkəmizin qüdrətini daha da artırır. Bu nailiyyətlər müstəqil dövlətimizin sürətli inkişafına təkan verən uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticəsidir. Müasir Azərbaycan dövlətinin Qurucusu, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi Azərbaycanın qarşısında böyük imkanlar açır.

Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, layihələr, aparılan uğurlu islahatlar bütün bölgələrimizin inkişafına, müasirləşməsinə səbəb olub. Azərbaycanın hər yerində olduğu kimi, bu gün qədim tarixə malik olan Gəncə də yeni inkişaf dövrünü yaşayır. Gəncə Azərbaycanın qədimliklə müasirliyi, Şərq memarlıq üslubu ilə Qərb modernizmini üzvi şəkildə birləşdirən şəhərlərindən birinə çevrilib. Yeni yollar salınır, infrastruktur layihələr reallaşır, yeni parklar yaradılır. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə Gəncəyə dəfələrlə səfər etməsi onun inkişafına müsbət təsirini göstərib. Dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir ki, şəhər inkişaf edir. Şəhərdə həyata keçirilən tədbirlər nəticəsində yeni tikililərlə yanaşı, qədim, tarixi abidələr yenidən bərpa edilir. Bu gün yeni inkişaf dövrünü yaşayan Gəncədə sosial məsələlər öz həllini tapıb, infrastruktur yenilənib, şəhərdə abadlıq-quruculuq işləri aparılıb. Belə ki, asfalt yolları, müasir məktəbləri, poliklinikaları var, qazlaşdırma, enerji ilə təminat 100 faizdir. "Son illərdə biz Gəncənin əsas infrastruktur layihələrini icra etməyə çalışdıq və bu layihələrin böyük əksəriyyəti öz həllini tapdı", - deyən Cənab Prezident bildirib ki, elektrik enerjisi ilə təchizat tam öz həllini tapmışdır: "Gəncədə 10 yarımstansiya həm yenidən tikilib, həm də əsaslı təmir edilib. Onların enerji istehsalı gücü 220 meqavatdır, şəhərin tələbatını tam ödəyir. Eyni zamanda, şəhərin artan tələbatı, o cümlədən sənaye potensialı da nəzərə alınacaqdır". Avtomobil yollarının çəkilişinə gəldikdə isə artıq Bakı-Gəncə avtomobil yolu, eləcə də Gəncə-Qazax-Gürcüstan sərhədi yolunun çəkilişi başa çatıb.

Belə bir inkişaf yolu keçən Gəncə beynəlxalq tədbirə ev sahibliyi edəcəkdir.

***Zümrüd BAYRAMOVA***

# Başlıbeldə qətliam

## 32 il əvvəl aprelin 18-də dinc sakinlərdən 14 nəfər girov götürüldü, 18 nəfər qətlə yetirildi

İki yüz ildən artıqdır ki, erməni-daşnak quldur birləşmələri və onların havadarları azərbaycanlılara qarşı qətliamlar həyata keçirir, torpaq iddiaları irəli sürərək böyük fəlakətlər törədirlər. İyirminci yüzillikdəki tarixi yolumuza nəzər salaq görərik ki, 1905-1907, 1918-1920, 1948-1953 və 1988-ci ildən baş verənlər erməni faşizminin xalqımıza qarşı olan çirkin niyyətlərinin göstəricisidir. Onların törətdiyi əməllərin izi neçə-neçə qanlı olayları, soyqırımı tariximizin vərəqlərinə həkk edib. Bu faciələr sırasında Kəlbəcər rayonunun ən böyük kəndlərindən biri olan Başlıbeldə törədilən qətliamdan bu gün artıq 32 il ötür. 1993-cü ilin aprel ayında baş verən hadisə zamanı Başlıbel kəndinin aprelin 2-də kənd sakinlərinin bir qrupu mühasirədən çıxmağa çalışsalar da, buna nail ola bilməyiblər. Bu zaman sakinlərdən 9 nəfər yolda qətlə yetirilib, 5 nəfər girov götürülüb. Digər 62 nəfər isə dağlara çəkilərək kahalara sığınmaqla özlərini qorumağa çalışıblar. Amma onlar cəmi 18 gün gizli yaşaya biliblər. Aprelin 18-də erməni silahlı birləşmələri dinc sakinlərin sığındığı kahaların yerini aşkarladıqdan sonra onların üzərinə silahlı hücuma keçiblər. Həmin gecə kənddən bir qədər yuxarıda yerləşən "Portda" kahalarına sığınmış sakinlərin üzərinə amansız hücum zamanı dinc sakinlərdən 14 nəfər girov götürülüb, 18 nəfər qətlə yetirilib. Sağ qalan 30 nəfər isə sığınacaq yerlərini kəndin ərazisindəki digər kahalara







dəyişərək mühasirə həyatını davam etdirib. Onlar 113 gündən sonra, iyulun 17-də sığınacağı tərk edərək yalnız gecələr hərəkət etməklə gizli dağ yolları vasitəsilə Ermənistan ordusunun mühasirəsindən çıxa biliblər.

Son iki yüzillikdə baş verən hadisələr əlbəttə ki, ermənilərin azərbaycanlılara qarşı olan niyyətlərini, terrorçuluq, soyqırımı siyasətini ortaya qoymuş olur. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində xalqımız misli görünməmiş faciələr yaşamışdır. 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğın Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqının dinc həyatına ağır zərbələr vurmuşdur. Belə ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırım və deportasiya siyasəti Azərbaycan xalqının yer üzündən tam silmək kimi iyrənc niyyətlərini göstərmiş olur. Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirilməsi, şəhər və kəndləri talan edilərək dağıdılması tariximizin yaddaşındadır.

1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri kimi yazıldı. 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən Qaradağlı qətliamı da Qarabağ münaqişəsi zamanı baş vermişdir. Nəticədə xeyli sayda mülki azərbaycanlı şəxslər ermənilər tərəfindən qətlə yetirilmiş, bir o qədər də əsir alınmışdır. 117 nəfər əsir alınmış, 66-90 nəfər mülki şəxs isə qətlə yetirilmişdir. Öldürülənlərdən 21-i ahıl və qocalar, 10-u qadın, 8-i məktəbli olub. 146 uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 yaşayışevi, 1 mədəniyyət evi, 320



yerlik orta məktəb, 25 çarpayılıq xəstəxana binası və digər sosial obyektlər dağıdılıb. Tariximizdə belə hadisələr kifayət qədərdir.

### 24 AZƏRBAYCANLI MÜLKİ ŞƏXSİ

### AMANSIZLIQLA QƏTLƏ YETİRİLDİ

1992-ci il avqustun 27-dən 28-nə keçən gecə erməni quldurları Laçın rayonundan məcburi köçkün düşən və Goranboy rayonunun Ballıqaya kəndində müvəqqəti məskunlaşmış 24 azərbaycanlı mülki şəxsi amansızlıqla qətlə yetirib, 9 nəfəri yaralayıblar.

Qətlə yetirilənlərin arasında 6 azyaşlı uşaq, o cümlədən 6 aylıq körpə də olub, 3 azyaşlı uşaq hər iki valideynini itirib. Öldürülmüş dinc insanların bəzilərinin meyitləri yandırılıb. Ballıqayada 93 yaşında qoca qadına da aman verilməyib. Öldürülənlərin əksəriyyəti uşaqlar, qadınlar və qocalar olub. 9 nəfəri isə ağır yaralayıb. Qətlə yetirilən və ağır bədən xəsarəti alan şəxslərin hamısı heyvandarlıqla məşğul olan mülki şəxslər, çobanlar və onların ailə üzvləri idi.

Bu qətliam zamanı beynəlxalq humanitar hüquq normaları kobud şəkildə pozulub. Bütün beynəlxalq hüquq normalarına və bəşəri dəyərlərə zidd olaraq mülki insanlar - azyaşlı uşaqlar, qadınlar və qocalar qətlə yetirilib. Ballıqaya qətliamı ilə bağlı materiallar, maddi sübutlar və faktlar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Memorial Soyqırımı Muzeyində saxlanılır.

Ballıqaya qətliamı zamanı erməni quldurları 33 yaşlı Hürzaman Hümbətovanı 6 azyaşlı övladı ilə birlikdə qətlə yetirərək yandırıblar. Ballıqayada qətlə yetirilmiş şəxslərdən bəziləri Bərdə rayonunun Qarademirçi, Alpout, Tumaslı və Nazırlı kəndlərində dəfn edilib. Ermənilər tərəfindən törədilən faciələr, o cümlədən Ballıqaya qətliamı xalqımızın yaddaşından heç vaxt silinməyəcək.

Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə baxmayaraq, Ali Baş Komandanın siyasi iradəsi, dövlətimizin gücü, rəşadətli ordumuzun dönməzliyi həsrətlə yolumuzu gözləyən tarixi torpaqlarımızda yol açdı. 2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsində Zəfər qazandıq. İşğal altında olan torpaqlarımız düşməndən azad olundu. 2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsində Zəfər qazandıq. İşğal altında olan torpaqlarımız düşməndən azad olundu. 44 günlük müharibədə Ermənistanın beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını bir daha ortaya qoymuş oldu. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə aldı. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası nəticəsində torpaqlarımızın işğaldan azad oldu və torpaqlarımıza göz dikən ermənilərdən intiqamımızı almış olduq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Doğum azalır:
## həm bizdə, həm dünyada





***Azərbaycan əhalisinin sayı 2025-ci il martın 1-nə 10 milyon 230 min 666 nəfərə çatıb. Dövlət Statistika Komitəsi bildirir ki, yanvar-fevral aylarında 15971 doğulan, 10461 ölən, 7741 nikah, 3414 boşanma qeydə alınıb, hər 1000 nəfərə 9,7 doğum, 6,3 ölüm, 4,7 nikah, 2,1 boşanma düşüb. 2024-cü ilin ilk iki ayına nəzərən doğumda 4,9 faiz azalmanın, ölüm hallarında 1,6 faiz, nikahlarda 17,5 faiz artımın rəsmiləşdiyi vurğulanır.***

Azərbaycanda əhali artımı davam etsə də, son 10 ildə doğum 60 faiz azalıb. Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, bu ilin yanvar-fevral aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri 15 min 971 doğulan körpə qeydə alıb. Ötən ilin eyni dövründə doğulan uşaqların sayı 17 min 81 olmuşdu. Əgər 2023-cü ildə ölkədə 112 min 620 uşaq doğulmuşdusa, 2024-cü ildə bu rəqəm 102



min 310 olub. İlin əvvəlindən ölkə əhalisinin sayı 5 min 777 nəfər və ya 0.1 faiz artaraq 2025-ci il martın 1-də 10 milyon 230 min 666 nəfər təşkil edib. 2014-cü ilin sonunda, rəsmi rəqəmlərə görə, Azərbaycanda 9 milyon 593 min insan yaşayırdı.

Birləşmiş Millətlər Təşkilatının hesabatlarına görə 2024-cü ildə dünyada 8 000 000 000 (səkkiz milyard) insan yaşayırdı. Son bir ildə dünyada təqribən 70.000.000 (yetmiş milyon) doğuş baş verib və dünyada hər gün təxminən 150.000 (yüz əlli min) doğuş baş verir. Yenə eyni mənbəyə görə, ötən il ölənlərin sayının təqribən 32.000.000 (otuz iki milyon), gündəlik ölüm sayının isə təxminən 68.000 (altmış səkkiz min) olduğunu görə bilərik.

2024-cü ilin məlumatlarına görə, Avropa İttifaqında (Aİ) 2022-ci ildə diri doğulanların sayı 1960-cı ildən bəri ən aşağı səviyyəyə düşüb. Həmin il Aİ-də cəmi 3,88 milyon körpə doğuldu, ilk dəfə bu rəqəm 4 milyondan aşağı düşdü. Ümumiyyətlə, Avropa İttifaqında doğuş nisbəti də aşağı düşüb, sonuncu dəfə 20 il əvvəl qeydə alınan səviyyəyə yaxınlaşıb. AB, qadına düşən diri doğulanların sayı ilə müəyyən edilən, dünyada ən aşağı məhsuldarlıq göstəricilərindən birinə malikdir. 1960-cı ildən bəri Aİ-də doğulan uşaqların sayında azalma tendensiyası müşahidə olunur. Ən aşağı rəqəm 3,88 milyon ilə 2022-ci ildə qeydə alınıb. 1990-cı ildə Aİ-də 5,1 milyon körpə doğulmuşdu, son bir ildə doğulanların sayı 5 milyonu ötmüşdü.

Ən yüksək doğum nisbəti Fransada qeydə alındı, Malta (1,08), İspaniya (1,16), İtaliya (1,24), Yunanıstan (1,32) və Kipr (1,37) kimi digər Aralıq dənizi ölkələrində isə əhəmiyyətli dərəcədə aşağı göstəricilər müşahidə olunub. Rumıniya (1,71), Türkiyə (1,63), Böyük Britaniya (1,56), Almaniya (1,46) və Finlandiya (1,32) kimi ölkələrdə də bir qədər yüksək doğum göstəriciləri qeydə alınıb.

Aİ-nin məhsuldarlıq nisbətindəki uzunmüddətli dəyişiklikləri araşdırarkən aydın şəkildə azalma tendensiyası ortaya çıxır. Dünya Bankının məlumatlarına görə, 1970-ci ildə 2,35 olan bu nisbət 1990-cı illərin sonunda ən aşağı səviyyəyə enib və 1998-ci ildə 1,4-ə düşüb. Daha sonra tədricən yüksəlməyə başlayıb və 2016-cı ildə 1.57 ilə son zamanların zirvəsinə çatıb. 2022-ci ildə Aİ-də ümumi doğuş nisbəti 2000-ci illərin əvvəllərində müşahidə olunan 1,4 səviyyəsinə yaxınlaşaraq, hər qadına 1,46 diri doğuş olaraq qeydə alınıb. 2002-2022-ci illər arasında AB-nin 27 Üzv Dövlətindən 13-də azalaraq, son 20 ildə əhəmiyyətli dərəcədə dəyişib. Doğuş nisbətlərində ən əhəmiyyətli azalmalar İrlandiya və Finlandiyada qeydə alınıb. Bu ölkələrin hər biri 20 faizdən çox azalma müşahidə edib. Bunun əksinə olaraq, Çexiya, Rumıniya və Bolqarıstanda hər biri 35 faizdən çox artım müşahidə olunub. Aİ-də bu nisbət sabit qalıb və cəmi 2 faiz artıb.

Dünya Bankının məlumatlarına görə, 2021-ci ildə Aİ Şərqi Asiya və Sakit Okean regionundan sonra ən aşağı doğum səviyyəsinə sahibdir. Qərbi və Mərkəzi Afrikada ən yüksək doğum nisbəti 4,98, Şərqi və Cənubi Afrikada 4,35, Ərəb dünyasında isə 3,14 olub. Qlobal orta doğuş nisbəti 2,27 olduğu halda, Şimali Afrika və Yaxın Şərqdə 2,63 ilə daha yüksək olub. Şimali Amerikanın 1,64 nisbəti İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) 1,59 orta göstəricisindən bir qədər yüksək olub.

1970-ci ildən başlayaraq, demək olar ki, bütün regionlarda doğuş faizində əhəmiyyətli azalma tendensiyası müşahidə olunur, baxmayaraq ki, azalma Afrikada çox az olubr. Digər tərəfdən, 41 Avropa ölkəsinin hamısında doğum nisbətləri qlobal orta göstəricidən aşağıdır.

Dünyada hər il təxminən 1,6 milyon əkiz doğulur. Bu o deməkdir ki, hər 42 uşaqdan biri əkiz olaraq doğulur. Süni mayalanma kimi köməkçi reproduktiv tibbi üsullar 1980-ci illərdən bəri əkiz doğum nisbətini üçdə bir artırdı. Araşdırmalara görə, 1980-ci illərdən bəri əkiz doğumların 30 faiz artıb. Ancaq əkiz körpələrin sayındakı artım əslində eyni yumurta əkizlərində deyil, ayrı yumurta əkizləri əhatə edir. Eyni yumurta əkizləri bütün dünyada eyni sürətlə (hər min doğuşdan dördündə) doğulmağa davam edir. Burada regional fərqlər və ya yaş faktoru rol oynamır.

Ayrı yumurta əkizlərində isə vəziyyət çox fərqlidir. Xüsusilə inkişaf etmiş ölkələrdə 1970-ci illərdə başlayan tibbi müdaxilə ilə olan əkiz doğuşlar statistikada əkiz körpələrin sayının artmasında böyük rol oynayıb. Məlumatlara görə, dünyada hər il doğulan 3,2 milyon əkizdən 1,3 milyonu Afrikada, təxminən bir o qədər də Asiyada doğulur. Qalan 600 mini digər qitələrdə müşahidə olunur. Asiya dünya əhalisinin 60 faizini təşkil etdiyi üçün əkiz doğuşların sayı normal hesab edilsə də, tədqiqatçılar Afrikada bu rəqəmin iki və ya üç dəfə çox olduğunu, bunun da dünya əhalisinin 17 faizini təşkil etdiyini deyir. Bu vəziyyət genetik səbəblərlə izah olunur. Lakin Avropa və ABŞ-da 40 il əvvəl bu nisbət sürətlə artmağa başlayıb və Avropada min doğuşa 14,4 əkiz, ABŞ-da isə 16,9 əkizə çatıb. Bu dövrdə Afrikada sayı dəyişməyərək min doğuşa 17,1 əkiz olub.

***Lalə Mehralı***



## Son yağış dərs olsun!

**MƏTANƏT**

İstəsək də, istəməsək də, yağış yağır, yağacaq da. Çünki biz hər işə qarışsaq da, Allahın işinə qarışa bilmərik. Yaz və payız aylarında isə yağışın yağması, hətta günlərlə yağması o qədər təbii haldır ki... Buna təbii fəlakət adı qoyanların səhv fikirdə olduğu qədər.

Bakıda yağışın yağmasını arzu etməyənlərin sayı arzulayanların sayından qat-qat çoxdur. Arzulayanlar bunu ona görə istəyir ki, yağış bu çirkli şəhərin kirini-pasağını yuyub aparsın, toz-torpaq bir az da olsa, aradan qalxsın. Təmiz havanı heç olmasa, 365-in bicə, ikicə günündə ciyərlərinə çəkə bilsinlər.

Arzulamayanlar isə ona görə yağışı istəmir ki, necə deyərlər, paxırları açılacaq: kanalizasiya sistemi sıfır vəziyyətdə olan şəhəri su basacaq, aləm bir-birinə qarışacaq və onların yaxasından tutub bu şəhərin abadlığı, yağış sularının axıdılması, kanalizasiya sisteminin qurulması üçün ayrılan vəsaitin hara getdiyini, bu şəhərin nə üçün bu gündə olduğunu soruşan olacaq. Lakin təəssüf ki, yağış yağır, bu gözəl şəhərimiz yağışda çimir, yağış suları özünə yol tapa bilməyib insanları, maşınları qarşısına alıb aparır, hətta onların həyatına belə qəsd edir, amma bu şəhərin dərdinə dərman olacaq qurum elə yerindəcə sayır.

Bir yağış bitir, "şükür",- deyib, o biri yağışadək "azadlığa" çıxır və gecə-gündüz Allaha yalvarır ki, bu şəhərə yağış yağmasın.

Allahın da böyüklüyünə şükürlər olsun. O da sanki bu insanların qəsdinə dayanıb. Aparıb yağışı rayon və kəndlərə yağdırmır. Camaat kəndlərdə bəzən müsəllaya çıxır ki, yağış yağsın, əkin-biçinləri susuz qalmasın. Lakin nə fayda? Yağış kəndlərə yox, Bakıya yağır. Bunun üçün Allahı da qınayar həmin qurumlar. Qınayar ki, ay Allah, bu şəhərdə kartof, soğan, buğda, pambıq əkən var, yağdırma da bu şəhərə yağışını, apar kim istəyir, ora yağdır, nə olar...

Lakin Allahın ulduzu o insanlarla barışmır ki, onun işinə qarışır. Belə olanda Allah qəzəblənir və bəndəsinə elə bir dərs verir ki, o dərsi həyatda başqa heç kimdən ala bilmir.

Elə bax Bakıya yağan yağışlar kimi. Noyabrda yağdı, nəticələrini gördük. Bakı suyun içərisində üzdü. Sonra qurulandı, bir təhər çıxdı vəziyyətdən. Bu nə üçünsə dərs olmadı. Qarşıdan qış gəldi, aid qurumlar qış yuxusuna getdi, dedi yağış yağmaz artıq. Ta düşünmədir ki, axı bu qışın sonrası yaz olacaq, yaz yağışları isə daha güclü olacaq.

Budur, dünən yenə də yağış yağdı, bu şəhər yenə də iflic vəziyyətə düşdü. Yollar bağlandı, su hər yeri basdı, küçələri keçilməz etdi. Aid qurumlar üçün qara xəbər olsa da, yağış yağdı və gördük ki, həmin qurumlar əsla bir iş görməyib. Görmədikləri üçün də bu yağışın adını yenə qoydular təbii fəlakət.

Maraqlıdır, biz dünyanın ən çox yağış yağan şəhərində yaşasaydıq, aid qurumlar həmin bölgənin adını nə qoyacaqdı-fəlakətlər şəhərimi?

Yaxşı, ötən yağışlarda çəkdiyimiz əziyyətlərin hamısını bağışlayaq, Heç olmasa, aid qurumlar son yağışdan sonra oyansınlar. Bu yağış onlara dərs olsun. Bu şəhərə heyfləri gəlsin, onu sulara qərq etməsinlər. Bu şəhərin insanlarına da rəhm etsinlər. Təpədən dırnağa su olan, özü üçün sudan xilas vasitələrini artıq toplamağa, ehtiyat yaratmağa çalışan insanlara...

# Cəmil Həsənli siyasi intihara sürüklənir



***E** məsələdir, "bacardığın işin qulpundan yapış, bu həm sənin, həm də cəmiyyət üçün xeyirli olar". Təəssüflər olsun ki, elə şəxslər var ki, bilmədiyi və bacarmadığı işlərə baş vurur, özünü o sahənin bilicisi, peşənin bacarıqlı insanı olaraq göstərməyə çalışır. Az sonra bəlli olur ki, həmin peşə o şəxs üçün deyil. Ancaq bu halda belə dirəniş göstərir, geri çəkilmək, əski mövqeyinə qayıtmaq istəmir.*

Bəlkə də tövsiyə olunan, məsləhət bilinən peşəni seçsə idi həmin insan üçün daha xeyirli və gəlirli olardı. Lakin hikkə və iddia, özündən müştəbeh olması ona ağıllı məsləhətləri qəbul etməsinə imkan vermir. Nəticədə özü ilə yanaşı ətraflarında olanları, bəzən isə yaxınlarını fəlakətlə üz-üzə qoyur. Misal üçün dağıdıcı müxalifət düşərgəsində təmsil olunan partiya sədrlərinin hazırkı məqamda üzləşdikləri faciələri göstərmək olar. Hansı ki, siyasi bataqlıqda əzilən Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı və digərləri siyasətlə deyil, bacardıqları işlə məşğul olsa idilər, bəlkə də böyük uğurlar qazanar, ən azı rayon səviyyəsində hörmət-izzət sahibi ola bilərdilər.

Mətbuatdan oxuduğuma görə, C.Həsənli kitab-filan yazıb, hətta müəllimlik də edib. Bununla yanaşı, C.Həsənli universitetə uşaqlar hazırlayıb, aradabir qəzetlərə yazılar da verərək, müstəqil jurnalistika ilə məşğul olub. Səmərəli fəaliyyət yolu tutması ilə C.Həsənli maddi imkanlar əldə edib, özünə sağlam düşüncə sahibi olan dost-tanış da qazanıb. Məhz sağlam mövqeli fəaliyyətinə görə C.Həsənli Milli Məclisə deputat seçilmək imkanı da əldə edir. Vəziyyət bu templə davam edəcəyi təqdirdə, C.Həsənlinin elm sahəsində püxtələşməsi, yeni uğurlar əldə etməsi mümkün görünürdü. Lakin sən saydığını say, gör əli xarici maraqlı qüvvələrin cibində olan AXCP sədri Əli Kərimli və ətrafında olanlar nə sayır.

Onu sayırlar ki, C.Həsənlinin zəif və iradəsiz olmasından istifadə edərək, onu özlərinin qurduqları məkrli tora saldılar. Elə bir hörülən çətin tora ki, bu gün də C.Həsənli çox cəhd etsə də, Ə.Kərimlinin ustalıqla qurduğu tordan çıxa bilmir.

### Cəmil Həsənli siyasətə gəlməsinə görə peşman olub

Çatan söhbətlərə əsasən demək olar ki, C.Həsənli siyasətə gəlməsinə görə çox peşman olub. Lakin artıq gecdir. Çünki C.Həsənli ömrünün qürub çağını yaşayır. Bu isə ona dəlalət edir ki, C.Həsənli üçün hər şey bitib. Əminliklə qeyd etmək olar ki, C.Həsənli onu siyasətə gətirib, gözəl işindən, səmərə verə biləcək peşəsindən ayırdığı üçün Ə.Kərimlini qınayır. Üzbəüz söhbətlərdə heç şübhəsiz ki, C.Həsənli Ə.Kərimliyə qarşı sərt ittihamlar da irəli sürür. Bütün bu kimi narazılıqlar, peşmanlıqlar isə faydasızdır. Yeganə hazırkı məqamda C.Həsənliyə təsəlli o ola bilər ki, qara-qura əməllərinə, xalqın maraqlarına qarşı yönələn fəaliyyətinə görə ictimaiyyət önündə üzr istəsin. Açıq şəkildə desin ki, "o, peşmandır, üzr istəyir". Həm də söyləsin ki, təsir altında olduğu üçün xaricdəki ermənipərəst dairələrin göstərişi ilə Azərbaycanın dövlət maraqlarına zidd olan fikirlər səsləndirib, açıqlamalar verib. Bəlkə bu halda xeyirxah Azərbaycan insanları nəsə fikirləşər. Nəzərə almaq lazımdır ki, Azərbaycana qarşı qərəzli fikirlər səsləndirənlər ya erməni lobbisinin sifarişlərini yerinə yetirən dağıdıcı müxalifətin üzvləridir, ya da ölkəmizin dünya miqyasında əldə olunan uğurlarını həzm etmək istəməyən, qısqanclıqla yanaşan Almaniya, Fransa, ABŞ kimi məkrli dövlətlərdir. Fransa o dövlətdir ki, 44 günlük Vətən müharibəsində Azərbaycan 30 illik erməni işğalına son qoyub ərazi bütövlüyünü bərpa etdikdən sonra Fransa senatı erməniləri himayə edən, Ermənistana dəstək göstərən irticaçı qərarlar qəbul etdi, Makron hər fürsətdə ölkəmizlə bağlı qərəzli açıqlamalarla çıxış edib. Almaniya və ABŞ-da eynilə ermənipərəst mövqe sərgiləyiblər.

### Əli Kərimli xəstə müxalifətin üz qarasıdır

Əli Kərimlinin, C.Həsənlinin və digər dağıdıcı ünsürlərin Ermənistandakı revanşistlər kimi çıxışlar etmələri, milli maraqlarımıza yönələn iddialar irəli sürüb, bunları Almaniya, Fransa, ABŞ kimi dövlətlərdə mövcud olan məkrli şəbəkələrə göndərmələri onların sağalması mümkünsüz olan xəstəliyə tutulduqlarını göstərir. Hətta o qədər xəstə təfəkkürə mübtəla olublar ki, barda alkaşın, küçədə narkomanın, səhnədə ağılsız rəqqasənin, siyasətdə erməni kökənli şəxsin Azərbaycanla bağlı istənilən sayıqlamasını bəh-bəhlə öz sosial şəbəkə hesablarında paylaşırlar. Bütün bu kimi fəaliyyət onların cəmiyyətin gözündən, ictimai rəyin nəzərindən daha da düşmələrinə gətirib çıxarır. Təbii ki, belə acınacaqlı durumda olan müxalifət məhvə məhkumdur. Necə ki, artıq gözlənilən fəlakət dağıdıcı müxalifətin qapısı önündədir. Yəqin ki, qısa müddət sonra Milli Şura, Müsavat, AXCP kimi qurumlar siyasi səhnəni tərk etmək məcburiyyətində qalacaqlar. Bu, həm də Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı və digərlərinin siyasətlə vidalaşması demək olacaq. Bununla da hesab etmək olar ki, müxalifət düşərgəsində təmizlənmə başa çatacaq. Onları əvəz edənlərin aparacaqları siyasətin necə olacağını isə zaman göstərəcək.

***İLHAM ƏLİYEV***

# Analıq məzuniyyəti tətbiq etməyən müəssisələr

# CƏZALANACAQ?



"İşçilərin məzuniyyət hüququ Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir və sözügedən Məcəlləyə əsasən işçilərin bu hüququ 4 məzuniyyət növləri ilə təmin edilir: əsas və əlavə məzuniyyətlərdən ibarət olan əmək məzuniyyəti; sosial məzuniyyət; təhsilini davam etdirmək və elmi yaradıcılıqla məşğul olmaq üçün verilən təhsil və yaradıcılıq məzuniyyəti; ödənişsiz məzuniyyət". Bu sözləri SİA-ya açıqlamasında Vəkillər kollegiyasının üzvü, Bakı şəhəri 31 saylı Vəkil Burosunun vəkili Aysel Əhmədova deyib.

Aysel Əhmədova sözlərinə belə davam edib: "Cəmiyyətimizdə "analıq məzuniyyəti" kimi tanınan məzuniyyət növü qanunvericilikdə "sosial məzuniyyət" anlayışı ilə ifadə olunur. Sosial məzuniyyət isə hamiləliyə və doğuşa görə məzuniyyətləri; uşaqları övladlığa götürmüş qadınların məzuniyyət hüquqları və uşağa bilavasitə qulluq edən işçiyə verilən qismən ödənişli sosial məzuniyyətləri əhatə edir. Sosial məzuniyyətin bir növü olan hamiləliyə və doğuşa görə məzuniyyətlərin səciyyəvi xüsusiyyəti həm də ondan ibarətdir ki, əmək müqaviləsinin bağlandığı vaxt nəzərə alınmadan işin birinci ili üçün işçilər bu hüququndan istifadə edə bilərlər. Bunu ona görə fərqləndiririk ki, işçinin birinci iş ili üçün əmək məzuniyyətindən istifadə etmək hüququ əmək müqaviləsinin bağlandığı andan etibarən altı ay işlədikdən sonra əmələ gəlir. Vurğulamağı zəruri hesab edir ki, işçilər vəzifəsindən (peşəsindən), əmək şəraitindən və əmək müqaviləsinin müddətindən asılı olmayaraq, yuxarıda istinad olunan Məcəllədə müəyyən edilmiş məzuniyyətlərdən istifadə etmək hüququna malikdirlər və onların məzuniyyət hüququ və ondan istifadə qaydaları məhdudlaşdırıla bilməz. Göründüyü kimi, qanunvericilik məzuniyyət hüququnu və ondan istifadə edilməsini imperativ qayda olaraq müəyyən edib. Bu hüququn, qaydaların pozuntusuna yol verən işəgötürən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş "işçinin məzuniyyət hüquqlarının pozulması, işçiyə əmək məzuniyyətinin verilməməsi, habelə istifadə edilməmiş əmək məzuniyyətinə görə müəyyən edilmiş kompensasiyanın ödənilməməsi" növündə inzibati xətaya görə məsuliyyətə cəlb edilməlidir".

***Ayşən Vəli***



**Elçin Bayramlı**

# Bakını xilas etmək mümkündürmü?

Bakı şəhəri getdikcə yaşanmaz hala gəlir. Adi yağış yağarkən şəhər iflic olur, sakinlər ciddi problemlərlə üzləşir. Şəhərin su altında qalması, hərəkətin dayanması bir yana, hətta canlı itkilər də verilir. Bu, artıq fundamental problemdir və lokal tədbirlərlə problemin həlli təklifləri tamamilə mənasızdır.

Problem şəhərin həddindən artıq yüklənməsi, xaotik tikililərin sıxlığı və su-kanalizasiya xətlərinin adekvat olmaması ilə bağlıdır. Bu problemlər təbii olaraq Bakıda böyük infrastruktur problemləri yaradır. Bəzi ekspertlərə görə, Bakı şəhərinin kanalizasiya sisteminin yenidən qurulması, yağış və çirkab sularının ayrılması, yağış sularının toplanması və təkrar istifadəsi şəhərin ekoloji vəziyyətinin yaxşılaşdırılması və su ehtiyatlarının səmərəli idarə olunması problemin həlli baxımından mühüm əhəmiyyət kəsb edir. Hesab edilir ki, bu yanaşma, həmçinin şəhərin infrastrukturunun müasirləşdirilməsi və ətraf mühitin qorunması istiqamətində atılan vacib addımlar problemi həll edə bilər. Lakin, fikrimizcə, bunlar da problemi fundamental olaraq həll edə bilməyəcək, yalnız yüngülləşdirə bilər.

Uzun illərdir mütəxəssislər bununla bağlı çoxsaylı təkliflər verir, tövsiyələr irəli sürürdü. Vaxtında bu məsləhətlərə qulaq asıb iş görmədilər, indi isə çox gecdir. İndi bu təkliflərin həyata keçirilməsinin də heç bir mənası qalmayıb. Ümumiyyətlə, praktik olaraq Bakı şəhərini xilas eləmək mümkün deyil. Bakı artıq şəhər statusunu çoxdan itirib, onu ən yaxşı halda "idarə olunmaz hala gəlmiş xaotik beton cəngəllik" adlandırmaq olar.

Adi yağış zamanı şəhəri niyə su basır? 1990-cı illərin sonu və 2000-ci illərin əvvəllərindən başlayan tikinti bumu zamanı yağış suları üçün nəzərdə tutulmuş xətlər, drenaj sistemləri sıradan çıxarılıb və sonradan bərpa olunmayıb. Bu, kanalizasiya sisteminin bərbad vəziyyətə düşməsinə səbəb olub. Nəinki kanalizasiya xətləri, heç bir kommunal infrastruktur bu yükün öhdəsindən gələ bilmir. Düzənlik şəhərlərindən fərqli olaraq Bakının relyefi imkan verir ki, su xətləri vasitəsilə şəhərin kanalizasiya və yağış suları rahatca dənizə yönəldilsin, lakin şəhər təsərrüfatının rəhbərləri bu asan və sadə sistemi belə qurmayıblar, vaxtilə qurulanı da dağıdıblar. Milyonlar qazanmaq xatirinə şəhərsalmanın bütün qaydalarına tüpürülərək Bakını məhv edib, altını üstünə çeviriblər. Artıq heç bir qüvvə, heç bir layihə bu şəhəri düzəldə bilməz.

Ölkə əhalisinin yarısı- 5 milyona yaxın vətəndaşımız paytaxtda yaşayır. Bu isə normadan 2-3 dəfə çoxdur. Nəticədə şəhərin nəqliyyat və kommunal infrastrukturu çox yüksək gərginlikdə işləyir. Adi günlərdə belə şəhərdə hərəkət etmək, avtomobili saxlamaq, metroya minmək əzabdır. Sıx-sıx tikilən çoxmərtəbəli binaların həyətində tərpənməyə yer yoxdur, uşaqların oynaması, böyüklərin istirahəti üüçün yer yoxdur, ətrafında avtomobili dayandırmağa yer yoxdur. Paytaxt artıq yaşanılmaz hala gəlib.

Problemi həll etmək üçün irəli sürülən təkliflərin heç bir mənası yoxdur və edffekti olamayacaq. Yeganə çıxış yolu şəhərin azı yarısı sökülüb, yeni şəhərsalma layihəsi ilə yenidən inşa olunması və şəhər əhalisinin 2 dəfə azaldımasıdır. Bunun üçün də, azı 10-15 il vaxt və on milyardlarla vəsait lazım olduğu üçün, bu, qeyri-mümkündür. Ancaq bu sahədə müasir texnologiyaların tətbiqi və infrastrukturun yenilənməsi şəhər təsərrüfatının səmərəliliyini cüzi də olsa artıra və ətraf mühitin qorunmasına töhfə verə bilər. Nə yaxşı ki, Bakıda heç vaxt təbii fəlakət baş vermir, ildə 1 gün qar, bir neçə dəfə də adi yağış yağır. Əgər bir neçə gün davam edəcək qar və ya yağış yağsa, yaranacaq faciəvi vəziyyəti heç təsəvvür belə etmək mümkün deyil.

Dediyim kimi, şəhəri xilas etmək üçün çox gecdir. Bakı üçün görüləcək yeganə iş əhalinin ən azı yarısını regionlara köçürmək və yerlərdə sosial-iqtisadi inkişafa nail olmaqdır. Ən azı Qarabağdan olan məcburi köçkünlərin hamısı Bakıdan çıxarılmalıdır. Qaçqınların müəyyən bir hissəsi də işğaldan azad olunmuş ərazilərə köçürülməlidir. Digər rayonlardan axının qarşısı alınmalı, regionlarda iqtisadi aktivlik yaratmaq üçün vergi güzəştləri tətbiq edilməlidir. Elə bir şərait yaradılmalıdır ki, insanlar könüllü şəkildə Bakını tərk eləsin. Əhalinin sayı azaldıqdan sonra paytaxtın infrastrukturunu yeniləmək və hansısa qabaqlayıcı tədbirlər görmək olar.

# Ənənəvi, yoxsa elektron kitab?..

Biz zamana tabeyik, yoxsa zaman bizə? Bu, xeyli araşdırma və diskussiyaların mövzusu olub, cavabı tapılmayan sual olaraq qalmaqdadır. Bizim istəyimizmi, ya zamanın diktəsimi, - deyə bilməsək də, kitabxanalara ayaq döyüb sanki bir-birimizlə bəhsə giribmiş kimi buradakı rəflərin kitablarını səhifə-səhifə çevirib, cümlələri sətir-sətir yaddaşımıza köçürdüyümüz uzun zamanlar olub. Kitabla yatıb, kitabla oyandığımız, onların özünəməxsus qoxusunu ciyərlərimizə çəkdiyimiz, təsirləndiyimiz anlarda səhifələrini göz yaşlarımızla islatdığımız, xoşladığımız atalar sözlərini, aforizmləri, deyimləri bəzən yaddaşımıza hopdurduğumuz, bəzənsə altından xətt çəkib, səhifələrin bir kənarını qatlayıb işarəli qoyduğumuz zamanlar... Və günlərin bir günü yenilənən zamanla həyatımıza internet daxil olub. Zamanın bu dönəminin üstünlüyü virtual aləmi əhatə etdikcə elektron kitabxananı, kitabı da yaradıb. Bununla mütaliəsevərlər istədikləri anda həm kitabxanalarda, həm də evlərindəcə arzuladıqları kitabı oxuya bilmək imkanı əldə ediblər. Bu zaman kəsiklərinin yaratdığı fərq isə belə bir sual çıxarıb meydana: ənənəvi, yoxsa elektron kitab?



## Hər dövrün öz tələbi



Mövzu ilə bağlı Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident mükafatçısı, şair-publisist İbrahim Yusifoğlu ilə söhbət etdik. Onun fikrincə, hər dövrün öz tələbi var. Elektron kitabxanalar, kitablar da internet əsri adlandırdığımız müasir dövrümüzün tələbidir. İbrahim müəllim indi həm yeniyetmə-gənclərin, həm də orta yaş qrupunda olan insanların kitabları həm elektron, həm də ənənəvi şəkildə oxuduqlarını vurğulayır: - Bu gün həm paytaxt Bakıda, həm də regionlarda, hətta ən ucqar kəndlərdə belə kitabxanalar fəaliyyət göstərir. Artıq 30 il öncə rütubətdən oturmaq mümkün olmayan kitabxanaların yerində geniş, abad, işıqlı kitabxanalar yaradılıb. Müstəqilliyimizin bərpasından sonra kitabxanaların hər birinə dövlətimizin başçısı tərəfindən latın qrafikası ilə nəşr olunan minlərlə kitab hədiyyə olunub.



Son illər mütaliəyə maraq azalıb, bunu hər kəs təsdiqləyər. Lakin gününü kitab oxumadan təsəvvür edə bilməyən insanlar da çoxdur. Məhz buna görə də bu gün ölkə kitabxanalarında həm də elekrton kitabxanaların fəaliyyət göstərməsi təqdirəlayiq haldır. Elektron kitabxananın özünəməxsus üstünlükləri var. Xüsusilə gənclərin istifadə etdikləri elektron kitab onlara təhsilin müxtəlif pillələrinə, ixtisaslarını artırmaq üçün imtahanlara hazırlaşmalarında, müxtəlif elmi işlərlə bağlı araşdırmalar aparmaqda əvəzsiz köməkçidir.





Söz yox ki, həyatımıza nə qədər yeni texnologiyalar daxil olsa da, çap məhsullarını sıxışdırıb aradan çıxara bilməyəcəkdir. Çünki onların saysız oxucuları var. Mən də nəşr olunmuş mənbədən mütaliə etməyə üstünlük verirəm. Bu zaman sanki oxuduğum kitabın yazıldığı dövrə səyahət edirəm, o cəmiyyətdə olur, qəhrəmanların həyatını duyur, yaşadıqlarını yaşayıram. Ona görə də düşünürəm ki, bədii ədəbiyyatların kağız versiyası onların məzmununu elektron versiyadan daha dərin əxz etdirir insana.





## Həm elektron, həm də kağız kitab

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin 4-cü kurs tələbəsi Nərmin Hüseynli kitabların həm elektron, həm də kağız versiyasını oxuduğunu bildirir. Deyir ki, özü kimi, tələbə yoldaşları da sərbəst işlərin hazırlanmasında, bəzi tapşırıqların yerinə yetirilməsində ədəbiyyatların əksəriyyətini yalnız elekron kitabxanalardan tapa bilirlər. Həmçinin də bədii ədəbiyyatların. Elə kitab var ki, uşaqlardan biri oxuyur, sosial şəbəkələrdə paylaşır. Sən də onu oxumaq istəyəndə baxırsan ki, kağız variantı yoxdur, məcbur qalıb elektron kitaba müraciət edirsən.

Elektron kitabın üstün cəhətlərindən biri də odur ki, kitabda sənə lazım olan məlumatı və ya gözəl fikirləri dərhal başqa bir yerdə qeyd edə və ya onu müxtəlif sosial şəbəkələrdə digər istifadəçilərlə bölüşə bilirsən. Amma etiraf edək ki, kağız kitablar daha fərqlidir. Kitabın başqa heç bir forması onları əvəz edə bilməz. Çünki onlar sanki canlıdır, ətri olan canlı. Bir mənbədən oxumuşdum ki, ən dərin hafizə qoxu yaddaşıdır. Yaponlar yeni doğulan uşaqlara kitab oxutmazdan əvvəl kitabı qoxuladırlar. Kitab qoxulayan və kitab oxunan mühitdə böyüyən uşaqlar həm kitaboxuma vərdişi əldə edirlər, həm də yaddaşlarının dərinliyindəki qoxu böyüdükcə onlara istiqamət verir. Kitab oxumağa qeyri-ixtiyari yönəlirlər. Yəni sevərək oxuyurlar, məcburən yox.

## Elektron kitab kağız kitabın yerini tuta bilməz

Kitabsevər, həyatını bədii ədəbiyyatsız təsəvvür edə bilməyən, kitab oxumağın onun çörək, su kimi ehtiyacı olduğunu vurğulayan Bakı şəhər sakini Leyla Ağəliyeva elektron yox, kağız kitablara üstünlük verdiyini bildirir. O deyir ki, kitabı elektron variantda oxumağa cəhd edib, lakin alınmayıb. Sanki tamamilə hadisələrdən kənarda qalıb, fikrini cəmləşdirə, oxuduğunu əxz edə bilməyib.

Leyla xanım elektron kitabın pulsuz əldə edilməsi, asan daşınması, kağız formatda olmayan kitabların elektron versiyasının daha tez tapılması kimi üstünlüklərini vurğulasa da, kitabı ənənəvi qaydada oxumağı sevdiyini bildirir. Çantasından hazırda oxuduğu bədii ədəbiyyatı - Seselia Ahernin "Sabahın kitabı" əsərini çıxarıb bizə göstərir və deyir ki, ağır olsa da, özümlə gəzdirir, boş vaxtlarımda oxuyuram.

## Ancaq elektron kitab

Tələbə Mətin Məmmədli isə ancaq elektron kitab oxuduğunu bildirir. O deyir: - Dünyamız günü-gündən müasirləşir. Əvvəllər elektron kitabları yalnız "bookreader"lə oxumaq olurdusa, indi bu, smartfon telefon, yaxud planşetlərlə də mümkündür. Elektron kitabların internet vasitəsilə yüklənməsi də çox asandır, onları pulsuz əldə edə bilməyimiz isə daha da yaxşıdır.

Gənc mütaliəsevər elektron kitab oxumanın üstün cəhətləri ilə yanaşı, insan üçün zərərlərindən də danışır, mütəxəssislərin fikrinə görə, bunun gözlərə həddən artıq ziyan olduğunu, zaman-zaman baş ağrıları yaratdığını vurğulayır.

## Hadisələrin içərisində sən də olursan

Bu il təhsilini magistratura pilləsi üzrə davam etdirməyə nail olan Gülçin Əliyeva mütaliəsevər gəncdir, həm də kağız kitablara üstünlük verir. O deyir: - Kitabın məqsədi həyat dərsidir. İstər elektron, istərsə də kağız kitablar olsun, oxumalıyıq ki, bu həyat dərsini ala bilək. Mən, nədənsə özümü kağız kitablarda tapa bilirəm. Oxuduğum əsərlərin qəhrəmanına çevrilirəm, özümü o hadisələrin içərisində hiss edirəm. Xoşladığım fikirlərin altından xətt çəkir, onları yaddaş kitabıma köçürür, sonralar istifadə edirəm. Lakin elektron kitab oxuyanda bu hisslər məndə yaranmır, onunla aramda bir soyuqluq hiss edirəm. Həm də kağız kitab yaddaşı gücləndirir, həmçinin insanda göz yaddaşını formalaşdırır. Ənənəvi formada mütaliə edənlər bunu da təsdiqləyərlər ki, oxumağa fasilə verəndə kitabın səhifəsinin bir kənarını qatlamaq, səhifələrə toxunmaq, onları çevirəndə yaranan səs çox heyrətamiz və unudulmazdır.

## Son söz...

Mövzu ilə əlaqədar söhbət etdiyim mütaliəsevərlərin hər birinin son sözü belə oldu ki, fərqi yoxdur, istər elektron, istər kağız olsun, ta ki kitab oxunsun. Dünyagörüşümüzün formalaşmasında, mənəviyyatımızın zənginləşməsində, söz xəzinəmizin yaranmasında, həyatda mövqeyimizin müəyyənləşməsində, bizə yurd, torpaq sevgisinin, vətənpərvərliyin aşılanmasında birbaşa rolu olan kitab.

Son söz olaraq onu da unutmayaq ki, insanlar iki kateqoriyaya bölünürlər: kitab oxuyanlar və kitab oxuyanlara qulaq asanlar. Hansı olmaq istərdiniz?..

*Mətanət Məmmədova*

# Tehran tam nüvəsizləşmə təhlükəsi ilə üz-üzədir

***İranın uranın zənginləşdirilməsi proqramının mövcudluğu müzakirə mövzusu deyil, İslam Respublikasının xarici işlər naziri Abbas Əraqçi deyib. O, son günlər Vaşinqtonun mümkün razılaşmanın bir hissəsi kimi mülki nüvə enerjisi hüququndan Tehranı tərk edib-etməyəcəyi ilə bağlı fikrini bir neçə dəfə dəyişən ABŞ-ın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiven Vitkoffun bəyanatlarına belə cavab verib. Əraqçi aprelin 16-da jurnalistlərə açıqlamasında bildirib ki, amerikalılar konstruktiv mövqe tutsa, Tehran ABŞ ilə mümkün saziş üzrə danışıqlara başlayacaq: "İranın uranı zənginləşdirməsi aktual və real faktdır. Bəzi narahatlıqlara baxmayaraq, etimadın gücləndirilməsi üzərində işləməyə hazırıq. İranın nüvə sənayesi mülki məqsədlər güdür".***

Amma zənginləşmə prinsipinin özü müzakirə mövzusu deyil. İranın xarici işlər naziri Tramp administrasiyasının danışıqlarda tələbləri ilə bağlı ziddiyyətli bəyanatlar verməkdə davam etməsindən təəssüfləndiyini bildirib. Səbəb son günlər Stiven Vitkoffun verdiyi silsilə açıqlamalar olub. Beləliklə, əvvəlcə Fox News-da danışan Amerika liderinin xüsusi nümayəndəsi izah etdi: İran nüvə proqramının mülki olduğunu bəyan edərsə, potensial saziş çərçivəsində uranın zənginləşdirilməsi səviyyəsini silah dərəcəsinə yaxın olan 60%-dən 3,67%-ə endirməlidir. Witkoff izah etdi ki, Tehranla təklif olunan razılaşmanın bir hissəsi olaraq Tramp administrasiyası İranın nüvə infrastrukturunun yoxlanılması mexanizmlərini təyin edəcək, onun sözlərinə görə, bu, son dərəcə sərt olacaq və İslam Respublikasının raket proqramını ehtiva edəcək, çünki raketlər nüvə silahının çatdırılması vasitəsidir.










Bu, Ağ Evə qarşı tənqid dalğasına səbəb olub, çünki o, əvvəllər İranın nüvə infrastrukturunun tamamilə sökülməsinə çalışacağına söz vermişdi. Trampın tənqidçiləri 3,67% zənginləşdirmə həddinin Trampın keçmiş Demokratlar Partiyasından olan prezident Barak Obamanın diplomatik irsindən narazılığına görə birinci səlahiyyət müddətində pozmağa tələsdiyi 2015-ci il nüvə sazişinin Birgə Hərtərəfli Fəaliyyət Planının (JCPOA) şərtlərindən biri olduğuna diqqət çəkiblər. Amerikalı siyasətçilər və ekspertlər kinayə ilə qeyd ediblər ki, Ağ Evə yaqin ki, Obamanın keçmiş müşavirləri məsləhət görürlər və Trampın İran strategiyasının özü də onun tarif siyasətindən heç də az ardıcıl görünmür.

Vittkoff Ağ Evin mövqeyini aydınlaşdırmaq üçün yeni bəyanatla çıxış etməyə məcbur olub. ABŞ liderinin xüsusi nümayəndəsi X sosial şəbəkəsində "İran müqaviləsi yalnız Tramp razılaşması olduğu təqdirdə tamamlanacaq" dedi. "İstənilən yekun razılaşma Yaxın Şərqdə sülh, sabitlik və rifah üçün çərçivə yaratmalıdır və bu o deməkdir ki, İran nüvə zənginləşdirmə və silah proqramını dayandırmalı və ləğv etməlidir". Vitkoff əmin olduğunu bildirib ki, İran və ABŞ-ın "zamanın sınağına tab gətirəcək sərt, ədalətli razılaşma" beynəlxalq ictimaiyyət üçün kritikdir. Vitkoff əlavə edib ki, Trampa məhz belə bir müqavilənin əldə edilməsi tapşırılıb.

Lakin mülki nüvə sənayesinin taleyi son raundunun aprelin 19-da Omanda keçiriləcək ABŞ-İran danışıqlarını çətinə sala biləcək yeganə şey deyil. Britaniya mediası açıqlayıb ki, Vaşinqtonla razılaşacağı təqdirdə Tehran yüksək zənginləşdirilmiş uran ehtiyatlarını neytral ölkəyə ixrac etmək əvəzinə, öz ərazisində saxlamaq hüququna can atır. Məlum olduğu kimi, təkmil nüvə materialının çıxarılması JCPOA-nın vacib məqamlarından biri idi. 10 il əvvəl Rusiya Federasiyası təhlükəli uranın saxlanması məsuliyyətini öz üzərinə götürdü. İndi İran hakimiyyəti ona müraciət edir ki, uran ehtiyatlarının qorunub saxlanması sövdələşmənin Amerikanın gələcək liderlərindən hər hansı biri tərəfindən yenidən pozulacağı təqdirdə onların təminatıdır.

"Axios"-un sözlərinə görə, Tramp hətta Omanda keçiriləcək növbəti görüşdə İrana necə yanaşmaq barədə hökumətdaxili müzakirələr raundunu başlatmalı olub. ABŞ-ın vitse-prezidenti J.D.Vens və Vitkoff güzəştlərin və kompromislərin keyfiyyətli nüvə sazişinə gətirib çıxara biləcəyi fikrini bölüşür. Eyni zamanda, ABŞ dövlət katibi Marko Rubio və Trampın milli təhlükəsizlik üzrə müşaviri Maykl Valz vəziyyətə başqa cür baxır və İranla danışıqlarda maksimalist tələblərdən yayınmamağı təklif edirlər. Axiosun qeyd etdiyi kimi, Tramp özü də qarışıq siqnallar verir: o, sövdələşmə istədiyini deyir və diplomatiyaya çağırır, lakin eyni zamanda gücdən istifadəni də silməyib.

Tramp və onun xüsusi nümayəndəsinin ziddiyyətli bəyanatları, eləcə də İranın qırmızı xətləri ilə bağlı fərziyyələri Amerika administrasiyasında çaşqınlıq və uyğunsuzluqdan xəbər verir. "Bu bəyanatların davamı Vaşinqtonun JCPOA-dan çıxmasını xatırladaraq, bizim ölkənin müzakirəçiləri arasında Birləşmiş Ştatlara qarşı inamsızlıq yaradır.

Əraqçi aprelin 17-də Moskvaya gələcək, JCPOA-da iştirak edən ölkələrdən biri olan Rusiyanı ABŞ-la danışıqlar prosesinin gedişatı barədə məlumatlandıracaq. İran diplomatiyasının rəhbəri deyib ki, o, İranın ali dini lideri Əli Xamneyinin mesajını Rusiya prezidenti Vladimir Putinə çatdırmağı da planlaşdırır. İran diplomatiyasının rəhbəri onun məzmununu açıqlamayıb.

İranın əvvəlki nüvə sazişinin avropalı iştirakçıları ilə münasibətlərində vəziyyət hələ də gərgin görünür. "The Tehran Times" yazır ki, "Avropa üçlüyü" (Almaniya, Böyük Britaniya və Fransa) hazırda danışıqlar prosesinə daxil edilməməsindən narazıdır və buna görə də guya dialoqu dayandırmağa çalışır. Əgər İran rəhbərliyi həqiqətən də Avropa hiyləsindən şübhələnirsə, bu, aprelin 19-da ABŞ-İran məsləhətləşmələrinin ikinci raundunun əvvəlcədən planlaşdırıldığı kimi İtaliyada deyil, yenidən Omanda keçiriləcəyini izah edə bilər.

## Tramp İsraildən İrana zərbə vurmaqdan imtina etməsini istəyib

Aylarla davam edən daxili müzakirələrdən sonra Tramp hərbi əməliyyatı dəstəkləməməyə, bunun əvəzinə diplomatik həll yolu axtarmağa qərar verib. İsrail İranın nüvə obyektlərinə hava hücumu hazırlayıb, lakin diplomatik yanaşmaya üstünlük verən ABŞ prezidenti Donald Tramp tərəfindən manеə törədilib. Bu barədə çərşənbə günü, aprelin 16-da "New York Times" administrasiya rəsmilərinə və digər mənbələrə istinadən məlumat yayıb.

Nəşrin məlumatına görə, İsrail mayda zərbə planı hazırlayıb. Onun məqsədi İranın nüvə silahı yaratmaq qabiliyyətini ən azı bir il ləngitmək idi. NYT-nin qeyd etdiyi kimi, İsrail bu zərbəni həyata keçirmək üçün ABŞ-ın köməyinə ehtiyac duydu - təkcə İranın potensial cavabından qorunmaq üçün deyil, həm də hücumun effektivliyini təmin etmək üçün. Aylarla davam edən daxili müzakirələrdən sonra Prezident Tramp hərbi əməliyyatları dəstəkləməmək və bunun əvəzinə diplomatiya yolu ilə nizamlanmaya cəhd etmək qərarına gəlib.

Ötən şənbə ABŞ və İran Omanda danışıqlar aparıb. Hər iki tərəf görüşü "pozitiv" və "konstruktiv" adlandırıb. Proseslə tanış olan mənbənin sözlərinə görə, danışıqların ikinci raundunun bu şənbə günü, ehtimal ki, Romada keçirilməsi planlaşdırılır. Bundan əvvəl Tramp Fox Business-ə demişdi: "İranla rəftar etməyin iki yolu var: ya hərbi yolla, ya da sən sövdələşirsən". Onun mesajı Tehranın nüvə silahı əldə etməsi ehtimalına aid olub.

**V.VƏLİYEV**

# Daşqın və sel fəlakətlərində insan izi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb*












***Sel və daşqınlar illərdir dünyanın bir çox yerində böyük itkilərə və tələfatlara səbəb olan təbii fəlakətlərdir. Belə fəlakətlər adətən, güclü yağışlardan sonra çayların məcrasından çıxması, istiqamətini dəyişməsi, dəniz səviyyəsinin qalxması kimi səbəblərdən baş verir. Xüsusilə su ehtiyatları ilə zəngin ölkələr daşqınların qarşısını almaq və seldən qorunmaq üçün doğru su idarəçiliyini bilməlidir.***

İqlim dəyişikliyinin təsirlərini daha çox sel, meşə yanğınları və ya quraqlıq kimi fəlakətlərlə hiss edirik. Sel və daşqınların ən mühüm səbəblərindən biri meşələrin qırılmasıdır. İnsanlar illərdir bütün dünyada meşə sahələrini məhv edir, yandırır. Meşələrin qırılması sel və daşqın fəlakətlərinə səbəb olur, çünki meşələrin məhvi təbii ekoloji tarazlığı pozur. Suyu udmaq üçün ağaclar və digər bitkilərə ehtiyacımız var, ağaclar olmadıqda yağış suları daha sürətli axır və eroziyaya səbəb olur. Bu eroziya da öz növbəsində sürüşmələrə və torpaqda qeyri-sabitliyə səbəb olur, nəticədə isə daşqın və subasma fəlakətləri kimi ciddi təhlükə yaranır.

Daşqın fəlakətləri və subasmalar qəfil və intensiv yağıntılar nəticəsində baş verir. Suyun idarə oluna bilməyəcəyi nöqtələrə nüfuz etməsi nəticəsində insan itkisinə, dağıntı və maddi ziyana səbəb olur. Ona görə də suyun idarə olunması, nəzarətdə saxlanma mexanizmləri istiqamətində vacib tədbirlərin görülməsi təhlükəsizlik üçün böyük əhəmiyyət kəsb edir.

Sel və daşqınlara səbəb olan insan faktoru, əslində, ən böyük səbəblərdəndir. Urbanizasiyanın çox olduğu bu dövrdə şəhərlər həddindən artıq yüklənib, şəhər infrastrukturu isə bu yüklənməyə hazır deyil. Şəhərlərdə bitki örtüyünün məhv edilməsi, şəhər ətraflarındakı meşələrin yandırılması və qırılması da sel sularının qarşısının alına bilməməsi səbəblərindəndir. Plansız sənayeləşmə və plansız şəhərsalma da daşqın zamanı axının istiqamətini dəyişdirməsinə səbəb olur ki bu da fəlakətin baş verməsini qaçılmaz edir.

Bəxtimiz onda gətirib ki, Azərbaycan heç bir okeanla həmsərhəd deyil, buna görə də ölkəmizdə okean qasırğaları, sunamilər, tornadolar baş vermir. Bildiyimiz kimi, hazırda bu cür təbii fəlakətlər okeanla həmsərhəd ölkələrin kabusuna çevrilib. Lakin Xəzərlə qonşuluq da bizə kiçik silkələnmələr bahasına başa gəlir, çox güclü olmasa da, zaman-zaman kiçik zəlzələlər baş verir. Həmçinin paytaxt Bakıda ara-sıra sürüşmə, yəni eroziya baş verməsi də istisna deyil. Problemlərimizdən biri də yağış zamanı yaranır. Bakının işləməyən kanalizasiya sistemi yağış sularını çəkə bilmir, dolayısı ilə şəhərin iflic vəziyyətə düşməsi qaçılmaz olur. Son bir neçə gündə Bakıda, küçələrdə, nəqliyyat sistemində, körpülərdə baş verən problemlər də bundan qaynaqlanır.

Ümumiyyətlə, daşqınlar dünyada çox yayılmış və dağıdıcı təhlükələrdən biridir. Daşqınlar dünyada daha çox, çayın, dənizin, yağış sularının ümumiyyətlə suyun öz səviyyəsindən yuxarı qalxması və ya başqa yerdən gəlməsi və quru səthləri örtməsi zamanı baş verir. Daşqınlar insan tələfatı ilə yanaşı, yollar, dəmir yolları, hava limanları, elektrik xətləri, su yolları və kanalizasiya sistemləri kimi infrastruktura da ziyan vurur və iqtisadiyyata mənfi təsir göstərir. Xüsusilə, daşqın ehtimalı nəzərə alınmadan yaradılan strukturlar və infrastrukturlar bu təbii hadisənin fəlakətə çevrilməsinə səbəb ola bilər.

Qeyd etdiyimiz ki, güclü yağışlar çayların daşmasına və suyun nəzarətsiz şəkildə yayılmasına səbəb olur. Xüsusilə yağıntının miqdarının normadan çox olduğu dövrlərdə daşqın riski artır. Dağlıq rayonlardakı çaylar sularının sürətlə axması səbəbindən daşqın riskini artırır. Yüksək yamaclardan yağış suları sürətlə aşağıya doğru axır və suyun səviyyəsi sürətlə yüksəlir. Bu, daşqınların baş vermə ehtimalını artırır. İqlim dəyişikliyi daşqınlara təsir edən mühüm amildir. Temperaturun yüksəlməsi ekstremal təbii hadisələrin tezliyini və intensivliyini artırır. Bu, daha çox yağıntı və şiddətli tufanlarla nəticələnir, daşqın ehtimalını artırır.

Daşqınlar heç də həmişə yağış yağan yerlərdə baş vermir. Ən günəşli və quru təbiəti olan ərazilər belə uzaq məsafələrdən gələn sel suları ilə daşqına məruz qala bilər. Buna görə də meteoroloji xəbərdarlıqları nəzərə almaq faydalıdır. Daşqınların şiddətli yağış, daşan çaylar, göllərdən əlavə tez əriyən qar, çökən bəndlər səbəbi ilə baş verməsi də mümkündür. Daşqınlar 1-2 sm dərinlikdə və ya bir evin damını örtəcək səviyyədə ola bilər.

Daşqın və sel fəlakətlərindən qorunmaq üçün binanın daxilində və xaricində daha yüksək və təhlükəsiz yerləri müəyyənləşdirmək lazımdır. Zərər görməməsi üçün qiymətli əşyalarınızı, sənədlərinizi, ailə fotolarınızı yuxarı mərtəbələrə daşıyın. Əgər daşqın baş verməsi gözlənilirsə içməli su və qida ehtiyatı yaratmaq lazımdır. Daşqın baş verdiyi zaman suya toxunmayın, çünki elektrik naqilləri ilə təmasda ola və cərəyan ötürə bilər.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
18 aprel
2025-ci il

# Kimlər taksi fəaliyyəti ilə məşğul ola bilər?

*Qurum rəsmisi məsələyə aydınlıq gətirib*



Saxta yollarla taksi fəaliyyəti ilə məşğul olanlanların sayı olduqca çoxdur. Son zamanlar baş vermiş qəzalar da buna sübutdur. Bəs belə sürücülər taksi şirkətinə saxta yollarla necə qoşulurlar? AZTV bu barədə material yayımlayıb. Məsələ ilə bağlı Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) mətbuat katibi Tural Orucov danışıb və bildirib ki, sifariş edilən, ünvana gələn taksilərin və onları idarə edən sürücülərin fərqli olması ilə bağlı AYNA tərəfindən taksi sifarişi operatorları ilə görüşlər keçirilir və onlara bu kimi halların qarşısını almaq üçün proqram təminatının verdiyi üstünlüklərdən istifadə edərək primitiv tədbirlərin görülməsi tapşırılıb.

Bəzi taksi sifarişi operatorları təhlükəsizliyi artırmaq, sürücü saxtakarlığının qarşısını almaq üçün mütəmadi monitorinqlər aparır. Belə ki, sürücülərin kimliyi müxtəlif üsullarla yoxlanılır. Hər hansı problemi aşkarlanan zaman intizamsız sürücülərin fəaliyyəti dərhal dayandırılır.



## Bakıda 45 yaşlı kişini hədələyib 169 min manatını əlindən aldılar...

Vətəndaşdan hədə-qorxu ilə pul tələb edən şəxs saxlanılıb. Bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb. Belə ki, aprelin 15-də paytaxt sakini olan 45 yaşlı kişi polisə müraciət edərək bildirib ki, tanışlarından biri onu barəsində rüsvayedici məlumatlar yayacağı ilə hədələyib və bu yolla 169100 manatını ələ keçirib.

Bildirilib ki, polis əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində hədə-qorxu yolu ilə tələb etməkdə şübhəli bilinən 41 yaşlı G.Əfəndiyev saxlanılıb. Faktla bağlı cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

**ELAN**

Quliyev Məhərrəm Hidayət ogluna məxsus "Kənan – K.F.T" MMC-nin möhürü itirildiyi üçün etibarsız sayılır.

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## "Real" ŞOKDA, "Arsenal" və "İnter" yarımfinalda...



Futbol üzrə UEFA Çempionlar Liqasında 1/4 final mərhələsinə yekun vurulub. Son iki cavab oyunundan sonra yarımfinalın bütün iştirakçıları bəlli olub. "İnter" Almaniyada 2:1 hesabı ilə qalib gəldiyi "Bavariya"nı bu dəfə İtaliyada qəbul edib. 2:2 hesablı heçheçə Milan təmsilçisini növbəti mərhələyə yüksəldib. "İnter" bu raundda İspaniya "Barselona"sına rəqib olub.

Digər matçda isə İngiltərə "Arsenal"ı İspaniyada "Real Madrid"lə qarşılaşıb. Londondakı ilk oyunda rəqibini 3 cavabsız qolla məğlub edən "topçular" səfərdə də qələbə qazanıblar - 2:1. "Arsenal" yarımfinalda Fransanın PSJ komandası ilə üz-üzə gələcək.

## "Sülh səfiri olmaq istəyirəm" - Van Damm Putinə üz tutdu

Hollivud ulduzu Jan Klod Van Damm Rusiya Prezidenti Vladimir Putinə müraciət edib. Rusiya mətbuatının yazdığına görə, o, Moskvaya gələrək sülh səfiri olmaq istədiyini bildirib: "Biz Rusiyaya gəlmək istəyirik. Çalışacağıq ki, hər şeyi sizin (Vladimir Putin-red.) istədiyiniz kimi edək. Sülh səfiri olmaq istərdim. Belə bir titula sahib olmaq böyük şərəf olardı".



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700